NİNO QVARAMADZE
NİNO MİTSİŞVİLİ

MÜƏLLİMİN KİTABI

# İCTİMAİ MƏNFƏƏT ÜÇÜN ƏMƏKDAŞLIQ

Mülki təhsil dərsliyinə köməkçi vəsait X siniflər üçün

USAID
FROM THE AMERICAN PEOPLE

PH international
ADVANCING SOCIETIES, CONNECTING PEOPLE

# İCTİMAİ MƏNFƏƏT ÜÇÜN ƏMƏKDAŞLIQ
MÜƏLLİMİN KİTABI

Mülki təhsil dərsliyinə köməkçi vəsait X sinif üçün, ikinci nəşr

Dərsliyin ikinci nəşri çap üçün “**SEZAN” MMC**-də hazırlanmışdır. İkinci nəşr dərsliyin birinci nəşrinin xırda dəyişikliklərlə yeni versiyasıdır.

Müəlliflər:
**Nino Qvaramadze**
**Nino Mitsişvili**

İşçi qrupun lideri:
**Nino Beseliya**

**Birinci nəşr üzərində işləmişdirlər:**
Tərcümə edəni: **Qızxanım Əhmədova**
Redaktor: **Oqtay Kazımov**
Dizayner: **Marta Tabukaşvili**
Cildləyən: **Qiorqi Maxaraşvili**
© Project Harmony, Inc., 2015
Bütün hüquqlar qorunur

Dərsliyin birinci nəşri çap üçün “Sakartvelos matsne qəzeti” MMC-də hazırlanmışdır.

ISBN 978-9941-0-7443-1

Dərslik Amerika xalqının dəstəyi və Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin səyinin nəticəsində hazırlanmışdır. Verilən dərslikdəki informasiya və onda söylənilən fikirlər üzrə məsuliyyət birmənalı şəkildə müəlliflərə aiddir və bu fikirlər Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin və ya Amerika Birləşmiş Ştatlarının hökumətinin nəzərlərini təqdim etmirlər.

# Ön söz

2010-2014-cü illərdə Gürcüstanda mülki təhsilin və müəllimlərin yenidən hazırlıq proqramı həyata keçirilmişdir. Proqramı Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) maliyyə dəstəyi ilə PH İnternational həyata keçirir. Proqramı Gürcüstan Elm və Təhsil Nazirliyi dəstəkləyir.

Proqramın məqsədi mülki təhsil məktəb proqramının keyfiyyətinin yaxşılaşdırılması və demokratik cəmiyyətin quruculuq prosesində gənclərin iştiraklarına dəstəyin verilməsidir.

Bu məqsədə nail olmaq üçün proqram çərçivəsində mülki təhsilin tədrisi üçün 4 köməkçi vəsait tərtib olundu; müəllimlər üçün treninqlər keçirildi; məktəbdə vətəndaş klubları yaradıldı; şagirdlərin, müəllimlərin və valideynlərin mülki təşəbbüsləri üçün kiçik qrantlar verildi; mülki təhsil müəllimlərinin forumunun əsası qoyuldu; mülki təhsilin yay düşərgələri təşkil edildi; mülki təhsilin və mülki təşəbbüslərin iki internet-portalı www.civics.ge və www.initiatives.ge yaradıldı, şagirdlər üçün sosial media üzrə treninqlər keçirildi və mülki təhsil kitabxanaları açıldı.

Qarşıdakı dərslik proqram çərçivəsində yaradılan köməkçi dərsliklərin seriyasından biridir. Dərslik xırda dəyişikliklərlə təkrarən 2015-ci ildə Mülki təhsilin yeni proqramı "Gələcək nəsil" çərçivəsində çap edilmişdir. Bu proqram da PH International təşkilatı tərəfindən, Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin (USAID) maliyyə dəstəyi və Gürcüstan Təhsil və Elm Nazirliyinin dəstəyi ilə həyata keçirilir.

Dərslik müəllimlər üçün nəzərdə tutulmuş və bir çox maraqlı və faydalı məlumatlardan ibarətdir. Onun vasitəsilə müəllimlər şagirdlərə dərsdə alınmış biliyin gündəlik həyatda və fəaliyyətdə istifadə etməkdə, həmfikirlərini, tərəfdaşlarını tapmaqda dəstək verə bilərlər ki, şagirdlər cəmiyyət üçün faydalı layihələri planlaşdırıb həyata keçirsinlər.

Praktiki fəaliyyətdə yaxşı vətəndaşlıq prinsiplərini həyata keçirməklə, şagirdlər güclü demokratik dövlət olaraq, Gürcüstanın quruculuğunda və inkişafında iştirak edəcəklər.

Gələcək nailiyyətlər arzusu ilə,
PH International - Gürcüstan

# MÜNDƏRİCAT


Giriş 5

Kitabdan necə istifadə edək 9

**Mövzu 1**

Cəmiyyətdə problemlər, problemə olan yanaşma 16

Əlavə 1 29

**Mövzu 2**

Əməkdaşlıq. Əməkdaşların seçim prinsipi. Əməkdaşlıq qaydaları. Əməkdaşlıq zamanı münaqişə 32

Əlavə 2 (1) 44

Əlavə 3 (2) 47

Əlavə 4 (3) 50

Əlavə 5 (4) 53

**Mövzu 3**

İctimai işlər. İctimai mənfəət. Problemlər və onların həlli alqoritmi 58

Əlavə 6 (5) 72

Əlavə 7 (6) 73

Əlavə 8 (7) 74

Əlavə 9 (8) 75

Əlavə 10 (9) 76

Əlavə 11 (10) 77

Əlavə 12 (11) 78

Əlavə 13 (12) 79

Əlavə 14 (13) 80

Əlavə 15 (14) 81

Əlavə 16 83

Əlavə 17 84

Əlavə 18 85

Lüğət 87

Faydalı resurslar 89

İstifadə olunan ədəbiyyat 90

# Giriş

Qarşıdakı kitab müəllimin metodik vəsaitidir və təhsil –metodik komplekti «İctimai mənfəət üçün əməkdaşlığ»-ın tərkib hissəsidir. Onun şagirdin dərsliyi ilə birlikdə istifadəsi mülki təhsil tədrisinin köməkçi materialı kimi nəzərdə tutulmuşdur.

Dərsliyin məqsədi şagirdlər üçün demokratik dövlətdə mülki fəallığın əhəmiyyəti ilə tanışlıqdan; gəncləri şəfqət və dəstək verilmədə düşündürməkdən; onların əməkdaşlıq üçün lazımi vərdiş-bacarıqlarla təchiz edilməsindən; şagirdlər üçün potensial tərəfdaşların (hökumət və ya qeyri-hökumət strukturlarının) funksiyaları ilə tanışlıqdan; layihə hazırlamağı öyrətmək və layihənin praktiki həyata keçirilməsi üçün hazırlıqdan ibarətdir. Material mülki təhsilin 10-cu sinfinin tədris planına (xüsusilə də 5-ci nəticənin və 10-cu nəticənin iki indikatoruna) uyğundur.



Mül.X.5. Şagird sosial problemlərin həllində düşünülmüş iştirak və əməkdaşlıq edə bilər.

Nəticə göz önündədir, əgər şagird:

- Özünün yaşadığı yerdə müxtəlif sosial azlıqları ayıra bilirsə *(məs.: tənha qocalar, əlillər, himayəsiz uşaqlar, immiqrantlar və s.);* bu adamlara münasibətdə cəmiyyətin qarşılıqlı əlaqələrinin özünəməxsusluqları barədə mülahizə yürüdürsə;

- Gürcüstanda, onun fikrincə, bütün mühafizə olunmayan sosial qrupları ayıra bilirsə və cəmiyyət tərəfindən onlara yardım göstərmək imkanları barədə mülahizə yürüdürsə; öz mülahizələrini əsaslandıra bilirsə;

- Sinif yoldaşları ilə birlikdə öz yaşayış məntəqəsində onun günün sağlam rejimi ideyasının populyarlaşdırılmasına hansı xidmətləri göstərə biləcəyini müzakirə edirsə; plan tərtib edir və məktəbin özünüidarəetmə orqanları ilə razılıq əsasında, informasiya-maarifləndirmə kampaniyasını həyata keçirirsə;

- Sinif yoldaşlarından ibarət qrupla birlikdə, onun fikrincə, cəmiyyətin kömək durması zəruri olan ictimai qrupu seçirsə; bu qrupun ümumi məqsədlərini və vəzifələrini aşkar edirsə; sinif yoldaşları ilə birlikdə bu ictimai qrupun (yaxud da konkret nümayəndənin) yardımedici tədbirlərini və məktəb özünüidarəetməsinin köməyi ilə planlaşdırırsa, seçilmiş qrupa kömək məqsədi ilə yerli hakimiyyətin nümayəndələri ilə əməkdaşlıq edirsə;

- Məqsədi məktəbin zərurətlərinin və sinif yoldaşlarının müvafiq imkanlarının dəqiqləşdirilməsindən ibarət olan "Məktəbə nə əlavə edə bilərik" sinif diskussiyasında iştirak edirsə; əvvəlki ildə göstərilmiş analoji işin nəticələrini nəzərə alır və özünün sinif yoldaşları ilə razılaşdırdığı fəaliyyət planını işləyib hazırlayırsa; planlaşdırılmış fəallıqlarda *(məs.: məktəb kitabxanasının və ya idman salonunun tamamlanması, aşağı sinif şagirdlərinin ekskursiyalarında şagirdlərə kömək göstərmək, məktəbin və ya onun ətrafının abadlaşdırılması və s.)*onun üçün ayrılmış rolu icra edirsə.

**Mül.X.10. Şagird Gürcüstan vətəndaşının ictimai-siyasi həyatda fəal iştirak etmək imkanlarını tədqiq edə və bunlardan istifadə edə bilər.**

Nəticə göz önündədir, əgər şagird:

- Məktəbin inkişafı *(məs.: tədrisin keyfiyyəti, texniki təchizat, gəlirlərin artması, milli və ya beynəlxalq layihələrdə iştirak və s.)* ilə əlaqədar sinif diskussiyasında və ya məktəb özünüidarəetməsinin müvafiq orqanının müzakirəsində iştirak edirsə, öz mövqeyini konkret ifadə edir və müdafiə etməyi bacarırsa;

- Onun üçün və ya hər hansı bir ictimai qruplaşma üçün aktual konkret problemi seçirsə *(məs.: təhsil almaq, məşğuliyyət, insan hüquqlarının pozulması, mülki mübahisələr, vergi münaqişələri, sosial təhlükəsizlik, səhiyyənin və ətraf mühitin mühafizəsi, siyasi və ya dini ayrı seçkilik və s.)*; təhlili əsasında tərəflərin hüquqlarının müdafiəsi və qanuni hərəkətlərin nəzərə alınması ilə konkret problemin həlli planını yazmaq üçün informasiya toplayırsa (bir neçə variant mümkündür); problemin həllində öz rolunu müəyyənləşdirirsə, həmfikirlər toplayır və plana uyğun hərəkət edirsə; öz iştirakının səmərəliliyini qiymətləndirir və nəticələri sinif yoldaşları ilə bölüşürsə.

Materialın istifadəsi X siniflər üçün nəzərdə tutulmuşdur.

Materialın tədrisinin pedaqoji yanaşması şagirdlərin tənqidi və məntiqi təfəkkürünün inkişafını, problemin həllində yaranan münaqişələrin həlli vərdiş-bacarıqlarının işlənib hazırlanmasını nəzərdə tutur.

Müəllimlərə qarşıya qoyulan məqsədlərin həyata keçirilməsində interaktiv təlim-tədris metodologiyası yardım edəcəkdir. Tədris üsulları metodiki dərslikdə ayrıca verilir.

Material layihənin yaradılmasına və praktiki həyata keçirilməsinə yönəlmişdir, bunun üçün də layihə həm tədris metodologiyası, eləcə də, tədrisin əldə olunası nəticəsi kimi təqdim edilmişdir.

Layihəyə əsaslanan tədris effektlidir, amma olduqca çox əmək tələb edən pedaqoji metoddur. Bu metod müəllimdən nəzərin, strukturun işlənib hazırlanmasını və tədris prosesini tam dərk etməyi tələb edir. Yaxşı layihə təsadüfən yaranmır. O, yalnız arzu olunan məqsədlərin əvvəlcədən dərk edilməsinin və prosesin planlaşdırılmasının, təşəbbüslərin və ilhamverici əməyin nəticəsi ola bilər.

Şagirdlərin seçdikləri layihənin həyata keçirilməsi gündəlik həyatda həqiqətən də onlara lazım olan kommunikasiya və təqdimat, işin təşkili və vaxt bölgüsü, araşdırma və sorğu aparmaq, özünüqiymətləndirmə və refleksiya, əməkdaşlıq və qrupla iş kimi bacarıqları qazandıracaqdır.

Layihənin gedişində şagirdlər özlərində təsəvvür belə edə bilmədikləri güclü tərəflərini tapa bilərlər (liderlik, planlaşdırma istedadı, yardım göstərmək imkanı).

Qeyd edilən xassələr, öz növbəsində, şagirdlərin emosional və etika fonunun yaxşılaşdırılmasına və ya formalaşdırılmasına dəstək verir, ictimaiyyətin xeyrinə əmək onların fəaliyyətlərinin bir hissəsi ola bilər və onlar aktiv və əxlaqlı əməkdaş ola bilərlər.

Bəzi layihələr başqa fənn müəllimləri ilə (məsələn, biologiya, kimya…..) əməkdaşlığı da tələb edə bilərlər.

Tədris materialı 6 dərsə bölünmüşdür. Bundan əlavə ehtimal olunur ki, şagirdlər qeyri-dərs vaxtında da layihənin həyata keçirilməsinə vaxt ayırsınlar. 3-cü mövzunun tapşırıqlarının yerinə yetirilməsi daha çox vaxt tələb edir və buna görə də bu mövzunun dərslər ən azı, bir həftəlik fasilə ilə keçirilməlidir.



## Kitabdan necə istifadə edək

Kitab üç mövzudan ibarətdir, onlar altı dərsdə təqdim edilirlər. Hər üç mövzu verilən ardıcıllıqla çatdırılmalıdır. Hər bir dərs ətraflı ssenari şəklində təqdim edilir. Bir çox hallarda sualları mötərizədə verilən düzgün cavablar müşayiət edirlər. Şagirdlərin cavablarını və ya yaranan vəziyyəti əvvəlcədən proqnozlaşdırmaq mümkün deyil, amma ehtimal olunan cavablar müəllimlərə çatdırılır. Hər bir mövzudan sonra Əlavələr verilir. Şagirdin dərsliyində əlavələrin ümumi nömrələri var. Müəllimin kitabında hər bir Əlavənin iki nömrəsi var. Birinci müəllimin kitabındakı nömrəni göstərir, mötərizədə verilən rəqəm isə şagirdin kitabında verilən əlavənin nömrəsini. Tapşırıqların da iki nömrələri var. Birinci mövzunun nömrəsini müəyyənləşdirir, ikinci isə - mövzu daxilində tapşırığın nömrəsini. Müəllimin kitabında hansı tapşırığın sinifdə, hansının isə sinifdənxaric yerinə yetirilməsi göstərilir. Şagirdlər üçün tanış olmayan sözlər şagirdin kitabında mətndə izah olunur və eləcə də əlifba sırası ilə lüğətdə də verilir. Əlifba sırası ilə lüğət müəllimin kitabında verilir. Şagirdin kitabı müəllimin kitabını tamamlaşdırır, çünki bəzi məlumatlar yalnız şagirdin kitabına daxildir. Dərsə hazırlaşdıqda müəllim hər iki dərsliklə tanış olmalıdır. Qarşıdakı kitabın sonunda müəllim üçün faydalı resurslar və istifadə olunan ədəbiyyat verilir.

# İstifadə olunan üsullar

Təklif edilən dərslərdə iş üçün istifadə olunan metodlar şagirdin tənqidi təfəkkürünün inkişafına xidmət göstərirlər. Bundan əlavə, bunların vasitəsilə şagirdlərin praktiki işlərin həyata keçirilməsinə yardım göstərən vərdiş-bacarıqları inkişaf edirlər.

Aşağıda istifadə olunan üsullar qısaca təsvir olunurlar.

**a) Qrupda iş.** Onun vasitəsilə şagirdlərin növbəti vərdiş-bacarıqları inkişaf edir: fikir söyləmək və onu əsaslandırmaq, bir-birini dinələmək və başqasının fikrinə hörmətlə yanaşmaq, tənqidi qiymətləndirmə, əməkdaşlıq, ümumi nəticəyə gəlmək. Bir çox hallarda, qrup işi ilə şagirdlərin utancaqlıqlarına da üstün gəlmək mümkün olur. Qrup üzvlərini şagirdlərin istəklərinə əsasən və ya təsadüfi seçim yolu ilə seçmək olar. Qrup işinin öz qaydaları var:

- qrup hər bir üzvün fikrini dinləyir;
- iştirakçılardan biri qeydləri yazır;
- qrup elə işləyir ki, digər qrupun işinə mane olmasın;
- qrup öz nümayəndəsini seçir və bu nümayəndə qalan auditoriyaya işi təqdim edir;
- tapşırıq əvvəlcədən müəyyənləşdirilmiş vaxtda yerinə yetirilir.

**b) Cütlüklərdə iş.** Cütlükdə iş prinsipi qrupda iş prinsipi ilə eynidir. Şagirdlər bir-biri ilə fikirləri və nəzərləri ilə paylaşır və ümumi cavab tapmağa çalışırlar. Bəzi hallarda, cütlüklərin və qrupların işləri divara yapışdırıla bilər.

**g) Əqli həmlə (brain-storming).** Bu üsul bir neçə mərhələdən ibarət ola bilər:

birinci mərhələdə şagirdlərə imkan verilir ki, bu və ya digər məsələ ətrafında fikirlərini sərbəst ifadə edə bilsinlər. Müəllimdən tələb olunur: sualları aydın formalaşdırsın, bütün sualları qəbul etsin, şagirdləri mübahisəyə, qiymətləndirməyə və rişxənd etməkdən uzaq olmağa çağırsın.

İkinci mərhələdə şagirdlər alınan cavablar üzərində düşünür, yaxud da qruplarda cavabları təhlil edirlər.

Üçüncü mərhələdə şagirdlər cavabları qiymətləndirir, cavabları müəyyən sistemə gətirirlər.

Bu üsul xüsusilə də yeni ideyaları qəbul etmək üçün maraqlıdır.

**d) Diskussiya** – interaktiv metodologiyanın ən mühüm üsullarından biridir. Diskussiya zamanı şagirdlərin problemə olan yanaşmalarının aşkarlanmasından başqa onların başqasının fikrini fəal şəkildə dinləmək, hörmət etmək və fikirlə paylaşmaq, öz fikrini ifadə etmək və əsaslandırmaq kimi vərdiş-bacarıqları inkişaf edir. Diskussiyanın düzgün aparılması üçün onu təşkil etmək və nizamlamaq lazımdır. Müəllim qarşılıqlı hörmətə və xoş əhval-ruhiyyəyə əsaslanan atmosferi yarada bilməlidir. O şagirdlərə müəyyən qaydalara riayət etməyi təklif edir: bir-birinin sözünü kəsməməli, bir-birinə rişxənd etməməli, mövzudan kənara çıxmamalıdırlar. Diskussiya zamanı əsas mövzudan əlavə mövzular da ayrıla bilər.

**"Quraşdırılmış diskussiya"** üsulundan layihənin planlaşdırma mərhələsində istifadə etmək olar. Yaxşı olardı ki, şagirdlərə işlərin ardıcıllığı təsvir olunan vərəqlər paylanılsın və quraşdırılmış diskussiya ərzində müəllim vaxt limitinin əməl olunmasını nizamlasın.

### İşlərin ardıcıllığını təsvir edən vərəq

1. Diskussiyada 4-5 şagirddən ibarət iki qrup iştirak edir. Qrupda layihə və ya onun hər hansı bir aspekti üzərində işləyən şagirdlər birləşməlidirlər.
2. **A** qrupu özünün layihə nəzərini təqdim edir ki, hansı işlər yerinə yetirilməli və hansı nəticələr gözlənilməlidir. **B** qrupu şərh etmədən və suallar vermədən onu dinləyir (7 dəqiqə).
3. **B** qrupu dinlənilən məlumatı dəqiqləşdirmək üçün, nəyinsə qarışıq və ya anlaşılmaz olduğunda əlavə suallar verir (4 dəqiqə).
4. **B** qrupu **A** qrupu üçün "isti" və "soyuq" sualları (isti – müsbət, soyuq isə - tənqidi əhval-ruhiyyəni bildirir) formalaşdırır (2 dəqiqə).
5. **B** qrupunun üzvləri dinləniləni bir-birinin arasında təhlil edir və "isti şərhləri" təqdim edirlər. **A** qrupu bu şərhləri qeyd edir, amma onlara cavab vermir (4 dəqiqə)

6. B qrupunun üzvləri bir-birinin arasında dinləniləni təhlil edir və “soyuq şərhləri” təqdim edirlər. A qrupu bu şərhləri qeyd edir, amma onlara cavab vermir (4 dəqiqə).

7. A qrupu şərhləri dinləyir və B qrupu ilə açıq diskussiyaya qoşulur.

Sonra rollar dəyişilir və indi **B** qrupu layihəni təqdim edir. Bu metoddan üç qrupda istifadə etmək olar. Qrupların hər üçü layihəni təqdim edənə və şərhlər aldığına qədər rollarını dəyişirlər. Vaxtın bölgüsünü qrupların ehtiyaclarından irəli gələrək dəyişmək olar, amma pillələrin hər birini keçmək lazımdır.

**“Dairəvi akvarium” -** sinif diskussiyasının növlərindən biridir. Ondan qiymətləndirmə və refleksiya üçün istifadə olunur. “Dairəvi akvariumun” üstünlüyü ondadır ki, diskussiya şagirdlərin kiçik qruplarında davam edir, sinfin qalanı isə ara-sıra diskussiyaya cəlb oluna bilən auditoriyanı təqdim edir .

- Şagirdlər elə oturmalıdırlar ki, böyük dairə alınsın.
- Böyük dairənin içərisində 5-7 şagirddən ibarət kiçik dairə yerləşməlidir.
- Kiçik dairə üçün seçilmiş şagirdlər arasında bir yer boş qalmalıdır.
- Dairənin içərisində oturan şagirdlər layihənin nəticələrini təhlil edirlər. Dairədən kənardakı şagirdlər dinləyirlər. Dairənin içərisindəki boş stulu dairənin kənarında sualı və ya şərhi olan nümayəndə tuta bilər. Sualı verdikdən sonra yaxud da şərh etdikdən sonra şagird dairənin xaricinə qayıdır və başqasına yer verir.

**e) Layihə** uşaqlar tərəfindən müxtəlif mövzu barədə keçirilən tədqiqatdır. Bu, konkret məqsədə çatmaq üçün mütəşşəkil bir əməldir. Onun bir sıra funksiyaları var:

✦ motivasiyalı – şagird öz əməllərinin mənasını görür;
✦ didaktik - şagirdin biliyi və bacarıqlarından layihənin həyata keçirilməsində istifadə olunur;
✦ iqtisadi – şagird qarşıdurmaları proqnozlaşdırmağı, vaxtı və resursları düzgün bölüşdürməyi öyrənir;
✦ sosial – layihə başqaları ilə əməkdaşlıqla davam edir;
✦ siyasi – kollektiv işində iştirak etmək şagirdə ictimai həyatın müəyyən təcrübəsini qazandırır.

Layihəni şagirdlərin qrupu həyata keçirir. Bunun üçün müəllim onlara mövzunu seçməkdə yardım etməli, şagirdlərlə birlikdə yerinə yetirmə müddətlərini müəyyənləşdirməli və şagirdlərə informasiya mənbələrini göstərməlidir.

Layihə üzərində işə başlayana qədər müəyyənləşməlidir: məqsəd, məsələlər, kimin yerinə yetirdiyi, hansı müddətlərdə, nəyin lazım olduğu.

**v) Suallar vermək və cavaba reaksiya göstərmək.** Bir çox hallarda, müəllim şagirdlərə bu və ya digər sualı verir. Əsasən iki növ sual mövcuddur – açıq və qapalı:

- qapalı sual dəqiq və bir düzgün cavabı tələb edir;
- açıq sual ətraflı cavabı tələb edir. Bir neçə cavab düzgün və ya mübahisəli ola bilər.

Sual verdikdə vacibdir:

✦ sual aydın formalaşdırılsın;
✦ sual cavabdan ibarət olmasın;
✦ intonasiya vasitəsilə cavab oxunulmasın.

"Bəli" və ya "xeyr" cavabını tələb edən suallar verməkdən çəkinməyiniz yaxşı olardı. Suala cavab vermək imkanı hər bir arzu edənə verilməlidir. Yaxşı olardı ki, müəllim bütün cavabları dinləməmiş cavaba qarşı öz yanaşmasını bildirməsin (müsbət və ya mənfi). Düzgün cavab verilmədikdə kəskin reaksiya göstərmək olmaz. Müəllimin şagirdlərə bir-birlərinə öz cavablarının düzgün olmasını sübut etməyə imkan verməsi və sonda müəllimin özünün fikrini bildirməsi yaxşı olardı.

# Mövzu 1





# Cəmiyyətdə problemlər, problemlərə olan yanaşma

# Mövzu 1

# Cəmiyyətdə problemlər, problemə olan yanaşma

Qarşıdakı mövzu üzərində iş şagirdlərə ictimai problemlərə diqqət vermək, bu və ya digər problemə qarşı öz münasibətlərini bildirmək imkanını verəcək. Mövzuya bir dərs ayrılır. Dərsə başlamazdan öncə müəllim şagirdlərlə beş dəqiqəlik söhbət aparır. Onları materialla tanış edir və konkret layihələrin həyata keçirilməsində materialın onlara yardım edəcəyini söyləyir. Şagirdlərə evdə yerinə yetirmək üçün 1.1 və 1.2 tapşırıqları verilir.

1.1 tapşırıq mətni oxumağı, emosiyalar və personajların problemləri üzərində düşünməyi tələb edir. 1.2 tapşırıq isə cəmiyyətdə mövcud problemləri sadalamağı tələb edir və bu da orta pillənin şagirdləri üçün çətin deyil. Bunlar təhrikedici tapşırıqlardır və vaxtı qazanmaq məqsədilə ev üçün verilir ki, bu mövzu üzərində iş üçün dərsə hazırlıqlı gəlsinlər.

*Şagirdin kitabından səh. 11-13*

**Tapşırıq 1.1**

a) Aşağıda verilən ifadələri və hər iki mətni oxuyun – “İnsan insanı təqib etdikdə” və “Mənim qızıl akvariumum”. Onların üzərində düşünün. Emosiyalarınıza diqqət yetirin. Onlarda söhbətin nədən getdiyini bir və ya iki sözlə formalaşdırın.

b) Oxuduğunuz parçalardan qəhrəmanların şəxsi və cəmiyyətdəki problemlərini yazın.

"Hər bir vətən oğlu var-gücü ilə vətəninə qulluq etməli, soydaşlarının mənfəəti barəsində düşünməli və əməyi nə qədər düşüncəli olsa, doğma ölkəsi üçün onun töhfəsi nə qədər faydalı olsa, bütün bəşəriyyət üçün də bir o qədər xeyirli olacaq".

**Vaja-Pşavela**



**Vaja-Pşavela** (1861-1915), Gürcü yazıçısı

"Xoş niyyət xoş əmələ keçmədikdə heç nədir."

**Petrus Yakobus Juber**



**Petrus Yakobus Jubep** (1834-1900) - 1880-1900-cü illər Transvaal Burlar Respublikası ordusunun sərkərdəsi; 1898-ci ildən Transvaalın vitse-prezidenti

"Əslində məsuliyyət daşımadığımız bir əzabı görməyə və onun qarşısını almamağa bizlərdən heç birimizin hüququ yoxdur".

**Albert Şvaytser**

**Albert Şvaytser** (1875-1965) – alman – fransız mütəfəkkir məktəbinin nümayəndəsi, həkim, musiqiçi, orqan ifaçısı.





**Lev Tolstoy** (1828-1910) – rus ədəbiyyatının klassiki, maarifpərvər, dini xadim, publisist.

"Göyərçinin yaxşılığı onun ləyaqəti deyil. Göyərçin canavardan çox da ləyaqətli deyil. Ləyaqət yalnız səylə yanaşı başlayır".

**Lev Tolstoy**



**Frans Kafka** (1883-1924) – yəhudi mənşəli alman yazıçısı. O, 20-ci əsr ədəbiyyatının ən məşhur və nüfuzlu nümayəndəsi kimi tanınır.

## İnsan insanı təqib etdikdə

Gecəyarısı küçədə gəzərkən qarşı tərəfdən kiminsə qaçdığını gördükdə, sən bu naməlum şəxsin əlindən tutmursan, onu saxlamırsan, hətta zəif də olsa və kiminsə onu təqib etdiyini və sənə qışqırıb onu dayandırmağı eşitsən də belə .... Sən qaçan adama qaçmağında mane olmursan.... Çünki gecədir və küçənin ay işığı ilə işıqlandırılması sənin günahın deyil. Bundan əlavə, bəlkə onlar qaçıb bir-birini tutur, bəlkə hər ikisini kimsə üçüncü bir şəxs təqib edir; bəlkə birincini günahsız yerə təqib edirlər; bəlkə ikinci birincini öldürmək istəyir və sən qətl iştirakçısı olmayacaqsan ki?! Bəlkə bu ikisi bir-birini heç tanımır və hər ikisi özü üçün evinə tərəf qaçır; bəlkə birincinin silahı var... Və nəhayət, yəni yorulmaq hüququmuz yoxdurmu? Azmı şərab içmişik? Və sən sevinirsən ki, hər ikisi gözdən itdi...

**Frans Kafka**

## Mənim qızıl akvariumum

– Gedə bilmərəm, gedə bilmərəm, məni dənizin ortasına aparar.
– Mənim Ninikom, mənim N...
– Anna, bəsdir, keçiddən keçirik.
– Anna, Anna! Mən sənin yerinə oxuyaram, anam acıqlanmaz və sən də rəqs edərsən, - xallı böcək kürkünə bürünmüş Niniko dişlərini ağardır.

Ninoya diqqət vermirəm, anamın sözünə baxıb keçiddən sakit keçirik.

– Ana, ana, qarnım ağrıyır.
– Eybi yox, evə tez çatacağıq və yatmazdan öncə sənə dərman verərəm, - deyir anam.

Addımlarımızı yeyinlətdik. İndi artıq həyatimizi aydın görürdüm. Qeyri-adi boş görünürdü. Elə bil ki, kobudlaşmışdı. Tezliklə evimiz də göründü, qaranlıq və tənha. Mən min dəfə oxuduğum, "bəzədilmiş" yazıları oxumağa başladım: Qio + Liza = Ürək! Şevardnadze – En! Yetər!

Anam çantasında açarları axtarırdı, Ninonun ağzı açıq qalmış və saçlarını bururdu, çünki yuxusu gəlirdi. Demək olar ki, hər şey yaxşı sona çatmalı idi. Ana açarını axtarmalı, evin qapısı açılmalı idi. Biz əbəs yerə liftin enməsinə ümid bəsləyirdik. Evə nərdivanlarla qalxmalı idik; ana qapını açacaq və bizə isti, şokoladlı və qozlu şirniyyat yedirdəcək, sonra mənə dərman verəcəkdi. Yatmazdan əvvəl atam da gələcək, məktəbə sarı pul verəcək və mən də şirin-şirin yatacaqdım. Amma həmin gün baş verənlər verdi.

Anam yenə də açarları axtarırdı. Külək yenə də elə əsirdi ki, isti kürkümdə də soyuğu hiss edirdim, gözümü yuxarı qaldırıb

qapının yuxarısında işıldayan lampaya baxırdım. Bir azdan lampa zəifləyib söndü. Pişiyin miyovultusunu eşitdim, üzümü səsə tərəf çevirib qaranlıqda bir qaraltı gördüm. O, yavaş-yavaş bizə yaxınlaşırdı. Anam açarı tapıb artıq qapını açmaq istəyirdi ki, naməlum şəxs onunla toqquşdu. Heç nə başa düşmədim, mən onun üzr istəməsini gözləyirdim, amma əvəzinə əsl mübarizə ilə üzləşdim: qaraltı anamın çantasını əlindən almağa çalışır, anam isə vermirdi. Pişik miyovuldayır, naməlum şəxs nalayiq sözlər deyir, mən qışqırır, Nino ağlayır, anam isə atamı çağırırdı. Bu səhnənin nə qədər uzanması yadımda deyil, yəqin ki, bir neçə saniyə, amma bütün bunlar yaddaşımda ömürlük iz buraxdı. O vaxta qədər yaşadığım qızıl akvarium çilik-çilik oldu, qayğısızlıq hissi harasa yox olub getdi. Əlbəttə ki, evimizdən kənarda nəyin baş verdiyini bilirdim, amma bunlarla əvvəllər rastlaşmamışdım; mənim öz aləmim var idi, mahnılarla, şokoladlı şirniyyatlarla və sarı pullarla dolu aləmim. Heç vaxt təsəvvür edə bilməzdim ki, televizordakı həqiqətlər mənim də həqiqətim ola bilər. Sonda anam yıxıldı və naməlum şəxs çantanı götürüb qaçdı, mən də onun arxasınca. Yadımda deyil, nəyi düşünürdüm, ona çatsaydım nə edərdim. Amma geri qayıtdıqda təntənəli şəkildə elan etdim: əlbəttə ki, ona çatardım, amma bir az aralı idi. Məhz onda, səkkiz yaşında olduğumda başa düşdüm ki, cəmiyyətin daha yaxşı olması üçün onun hər bir üzvü “öz oğrusunu” təqib etməlidir. Hər bir insanın borcudur ki, təkcə evdə deyil, evdən kənarda da rahatlıq yaratsın və heç bir zaman soyuqqanlı olmasın, çünki o da bir gün qaranlıq evin girişində açarlarını tapa bilməyə bilər.

Ana Qvalia
Qivi Zaldastanişvili adına Tbilisi Amerika
Akademiyasının on birinci sinif şagirdi

**Tapşırıq 1.2**

a) Düşünün və məktəbdə, ailədə, məhəllədə, şəhərdə, ölkədə gördüyünüz ictimai problemləri yazın.

b) İnformasiya verilişlərinə baxın və hansı ictimai problemlər haqqında söhbətin olduğunu qeyd edin. Bu problemləri artıq hazır siyahıya əlavə edin.

c) Qəzetləri oxuyun və qəzetlərdə təhlil edilən ictimai problemləri köçürün. İnternetdən ictimai problemləri axtarıb tapın. Onları da siyahıya əlavə edin.

Şagirdin kitabı səh. 11-13

# Birinci dərs

**Dərsin məqsədi:**

**Şagirdləri onların ətrafındakı problemlər, insanların soyuqqanlılığı və soyuqqanlılığın nəticələri, mərhəmət, təşəbbüs və əməllər barədə düşündürmək.**

Evə verilən tapşırığın yoxlanışı dərsdə şagirdlərin maraqlarının cəlb olunmasına xidmət edir, buna isə ən çoxu 10 dəqiqə vaxt lazımdır. Müəllim şagirdlərdən xahiş edir ki, sinfi ev tapşırığı 1.1-in 2-ci hissəsi və 1.2 (problemlərin siyahısı) ilə tanış etsinlər. O, böyük kağızın üzərində sxem çəkir (şək. 1) və hər bir problemin yerini sxemdə müəyyənləşdirməyi şagirdlərdən xahiş edir. Sxem şərti olaraq şagirdin ailəsindən başlayan və yavaş-yavaş genişlənən ətraf mühiti təsvir edir. Problemlər şərti olaraq belə bölünə bilərlər: ailədə, məktəbdə, kənddə/şəhərdə, ölkəsində, yad ölkədə problemlər, qlobal problemlər.




Şək. 1

Bəzi problem bir neçə dairədə (müxtəlif səviyyədə ) ola bilər. Sxemdə verilən problemlər şagirdlərin dərrakələrində problemləri ayırmağa imkan verir. Müəllim şagirdlərdən sxemi və onda verilən problemləri dəftərlərinə köçürməyi xahiş edir.

Sonra müəllim bütün bu problemlərin insana aid olduğunu və ona təsir göstərdiyini qeyd edir. Bu problemin həlli cəhdi insanların konkret qrupuna yardım göstərməyə istiqamətlənə bilər və yaxud da daha geniş cəmiyyət üçün faydalı ola bilər. Bu problemlər üzərində bir çox təşkilatlar çalışırlar, amma göründüyü kimi, bu, kifayət etmir. Bəlkə bu işdə onlara yardım lazımdır?

Məsələni anlatmaq məqsədilə müəllim məsələnin ətrafında şagirdlərlə diskussiya aparır (ən çoxu 10 dəqiqə): cəmiyyətin başqa-başqa üzvlərinin problemə qarşı hansı yanaşmaları ola bilər?

Növbətilərin ayrılacağı ehtimal olunur:

- ✦ insan problemi görmür;
- ✦ insanı başqalarının taleyi narahat etmir və hesab edir ki, bu problem ona aid deyil və aid də ola bilməz (burada konkretləşdirmək lazımdır – bu insan necə adlanır? – soyuqqanlı. Soyuqqanlı bu prinsiplə yaşayır: başqasının dərdi – çəpərdəki çöp);
- ✦ insan başqalarının dərdinə şərik çıxır və onlara yardım etməyə çalışır (hərəkəti ilə mərhəmət göstərmək);
- ✦ problemi insanın özü yaradır və ya kəskinləşdirir;
- ✦ insan yardım etmək istəyir, amma bacarmır (yaxud da bilmir ki, necə yardım etsin);
- ✦ insan belə düşünür ki, bu onun da problemidir və onu tam və ya qismən həll etməyə çalışır;
- ✦ İnsan hesab edir ki, bu problem ona aiddir, amma özü onu həll edə bilmir və başqasından kömək gözləyir.

Müzakirə növbəti istiqamətdə davam edir: sadalanan yanaşmalara əsasən, insanları, şərti olaraq iki qrupa ayırmaq olar – passiv və aktiv.

- ✦ Müsbət nəticəni nə verir, aktivlik və ya passivlik?
- ✦ Passivliyə nə səbəb ola bilər? (soyuqqanlılıq, utancaqlıq, tənbəllik).
- ✦ Necə düşünürsən, insan hansı yolu keçməlidir ki, soyuqqanlılığı dəf etsin?

Son sualdan gözlənilən cavablar:

- ✦ problemi görməlidir;
- ✦ bu problem aid olan insanların yerində özünü təsvir etməlidir;
- ✦ vaxt tapmalı və problemin həlli yolları barədə düşünməlidir;
- ✦ hərəkət etməlidir.

Müəllim şagirdlər tərəfindən sadalanan problemlərə qayıdır və sual verir:

– Sadalanan problemlərdən hansını həll olunmayan problem hesab edirsiniz?

Qeyd: Şagirdlərin hansı problemləri sadalayacaqlarını əvvəlcədən müəyyən etmək mümkün deyil. Əlavə 1-də bir neçə

məktəbdə keçirilən araşdırmanın nəticəsi ilə alınan problemlərin siyahısını təklif edirik. Onda layihənin həyata keçirilməsi üçün tövsiyə olunan problemlər ulduzla qeyd edilmişdir.

İnsanların problemlərə olan yanaşmalarını nəzərdən keçirdikdə şagirdlərə sinifdə yerinə yetirmək üçün Tapşırıq 1.2 verilir. Bu tapşırıq onlara imkan verir ki, onların ətrafındakı problemlərə varsınlar və müxtəlif dövrlərin və xalqların müxtəlif problemləri barədə düşünsünlər (refleksiya mərhələsi).

Tapşırıq qruplarda yerinə yetirilir. Şagirdlər iş üçün 2 mətni bölürlər: "Albert Şvaytserin tərcümeyi-halından parça" və "Pakistanlı oğlanın əhvalatı".

Müəllim diqqəti ona yönəltməlidir ki, bəzən insana elə gəlir ki, hər hansı bir problemin həlli üçün heç nə edə bilmir, amma hər zaman belə olmur. Onun həllində cüzi də olsa rol oynaya bilər. Problemin hissəsinin həlli də irəli atılan bir addımdır. Problemin tamamilə gözlənilməyən və qeyri-trivial həlli də tapıla bilər. Bəzi problemin həllində iştirak etmək konkret anda həqiqətən də qeyri-mümkün olur.

Şagirdin kitabı səh. 14

## Albert Şvaytserin tərcümeyi-halından parça

1904-cü ilin payızında Paris **missionerlər** cəmiyyətinin jurnalında "Missiyanın Konqodaki çətinliyi" adlı məqalə dərc olundu. Onda missionerlərin qarşılaşdıqları ağır vəziyyət haqqında yazılmışdı. Missionerlər min cür xəstəliklərdən əziyyət çəkən **Qabon** əyalətinin sakinlərinə yardım etməyə çalışırdılar: "Oqove sahilində mübarizə aparan kiçik orduya güc, enerji gərəkdir. Bəlkə bu ismarıc oxucunun ürəyini riqqətə gətirə..."

Bu zaman 29 yaşlı **elzaslı** Albert Şvaytser artıq fəlsəfə elmləri doktoru, **teologiya lisenziantı**, seminariyanın rəhbəri, məşhur orqan ifaçısı və musiqişünas, fəlsəfə, teologiya və musiqi üzrə bir çox maraqlı kitabların müəllifi idi. Onun valideynləri və bacı-qardaşları var idi. Tələbələri onu çox sevirdilər, onu sevən və anlayan gözəl Elena da onun yanında idi. Oxuduğu ismarıc Şvaytseri çox həyəcanlandırdı, amma.... qərar qəbul etdi və sakitləşdi.

### L ü ğ ə t

*Missioner - (frans. missionaire) Xristian kilsəsi tərəfindən dini təşviqatı yaymaq və başqa dinə itaət edənləri xristianlara çevirmək üçün göndərilən.*

*Qabon – hal-hazırda Afrikanın müstəqil dövləti.*

*Elzas – Şimal-şərqi Fransa vilayəti. Mətndə verilən dövrdə Almaniyaya aid idi.*

*Teologiya – ilahiyyat; dini doktrinaların və təlimlərin birliyi.*

## Pakistanlı oğlanın əhvalatı

1995-ci ildə şəhərlərin birində 12 yaşlı kanadalı Kreq Kyelbürqer məktəbə getməzdən öncə, adəti üzrə komiks axtarmaq üçün “Toronto ulduzları” qəzetini götürdü. Birinci səhifədə gördüyü fotoşəkil onun həyatını dəyişdi. Fotoşəkildə onun həmyaşıdı, pakistanlı İqbal Marihin şəkli təsvir olunmuşdu. Məqalədə yazılırdı ki, oğlanı 4 yaşında qul kimi satmış və bundan sonra 6 il fabrikada onu toxucu işləməyə məcbur etmişlər. 10 yaşına çatanda İqbal qaçıb canını qurtara bilmiş və hər yerdə uşaqların əmək faktlarını diqqətə çatdırmağa çalışırdı. O, səsini başqa ölkələrə də çatdırmaq  və bir çox uşaqların necə bir ağır gündə yaşadıqlarını göstərmək istəyirdi. Onun etirazından  narazı olan insanlar var idi və bunun üçün də onu öldürdülər.

**L ü ğ ə t**

*Lisenziant – 1) Qərbi Avropa və Latın Amerikası ölkələrində ilkin elmi dərəcə. Ali təhsil müəssisələrində təhsilin 3-cü və ya 4-cü ilinə uyğun edilir,orta məktəb müəllimi vəzifəsində işləmək hüququnu verir; 2) bəzi universitetlərdə, bakalavr və doktor dərəcələri arasında elmi dərəcə.*

Şagirdin kitabı səh. 14

Müəllim sinfə dörd qrupa bölünməyi təklif edir və qrupda işin qaydalarını onlara xatırladır:

- qrup hər bir iştirakçının fikrini dinləyir;
- iştirakçılardan biri qeydlər edir;
- qrup qalan auditoriyaya işi təqdim edən nümayəndəsini seçir;
- qrup elə işləyir ki, digər qrupların işlərinə mane olmasın;
- tapşırığı yerinə yetirmək üçün  şagirdlərə 15 dəqiqə vaxt verilir, təqdimat üçün isə iki-iki dəqiqə. Təqdimatdan əvvəlcə hər iki mətni bir dəfə ucadan oxumaq lazımdır.

**Dörd qrupa bölünün**



### Tapşırıq 1.3 Birinci qrup üçün

“Albert Şvaytserin tərcümeyi-halından parçanı” oxuyun və növbəti sualları cavablandırın:

a) Məqalədə təsvir edilən problem nədən ibarət idi?
b) Bu məqaləni yəqin ki, onlarla insan oxuyardı. Oxucuda hansı reaksiya yarana bilərdi?
c) Nə vaxt yardım göstərmək daha çətin olardı, 1904-cü ildə və ya bu gün?



### Tapşırıq 1.3 İkinci qrup üçün

“Pakistanlı oğlanın əhvalatı”-nı oxuyun və suallara cavab verin:

a) Kiçikyaşlı uşaqlar ticarətinə və onların əməyinin istismarına səbəb olan nədir?
b) Oxucuda hansı reaksiya yarana bilər?
c) Bu məqalədə nəyi görmək olar?
ç) Oğlan öldürüldükdən sonra məqalənin çapı hansı nəticəni verə bilərdi?

### Tapşırıq 1.3 Üçüncü qrup üçün

“Albert Şvaytserin tərcümeyi-halından” parçanı oxuyun.

a) Onda adı çəkilən bütün coğrafi yerləri xəritədə axtarın;
b) Problemlər sxemində problemləri uyğun dairəyə yazın (Albert Şvaytserin mövqeyindən);
c) Həmin dövrü nəzərə alaraq fikirləşin ki, hansı konkret şəxs və ya təşkilat məqalədə təsvir edilən problemlərin həllinə yardım edə bilərdi.



### Tapşırıq 1.3 Dördüncü qrup üçün

“Pakistanlı oğlanın əhvalatı”-nı oxuyun.

a) Onda adı çəkilən bütün coğrafi yerləri xəritədə axtarın;
b) Problemlər sxemində problemləri uyğun dairəyə yazın (Kreq Kyelbürqerin mövqeyindən);
c) Fikirləşin ki, hansı konkret şəxs və ya təşkilat məqalədə təsvir edilən problemlərin həllinə yardım edə bilərdi.



Təqdimatların sonunda müəllim şagirdlərin diqqətini hər iki mətndən hər bir cümləyə yönəltməlidir: "Oxuduğu ismarıc Şvaytseri çox həyəcanlandırdı" və "Birinci səhifədə gördüyü fotoşəkil onun həyatını dəyişdi". Müəllim həmin faktı vurğulamalıdır ki, hər iki halda insanları uzaq ölkələrdə yaşayan xalqların vəziyyəti narahat edirdi; hal-hazırda da başqa-başqa ölkələrdə yaşayan insanlara kömək göstərən beynəlxalq təşkilatların çox olmasına səbəb, ümumiyyətlə, insanlara yardım göstərmək istəyidir.

Müəllim mərhəmət və ya nəyisə dəyişmək istəyinin, bir çox hallarda, lazımi nəticəni vermədiyini göstərməlidir, bunun üçün də təşəbbüs göstərmək lazımdır. O, suallar verməlidir:

- "Təşəbbüs" sözünü necə başa düşürsünüz?
- Təşəbbüs və hərəkət arasında fərq nədədir?

Lazım gəldiyi halda, müəllim şagirdlərə izah edir ki, təşəbbüs hər hansı bir işdə atılan ilk addım, işə başlamaq üçün daxili təkandır. İnsan hərəkətə başlaya bilər, amma buna səbəb başqası tərəfindən göstərilən təşəbbüs ola bilər. Təqdimatların ətrafında müzakirə bitdikdən sonra müəllim şagirdlərə ev üçün 1.4 tapşırığını verir. Albert Şvaytserin tərcümeyi-halından parça üzərində işləyən və Pakistanlı oğlanın əhvalatı üzərində işləyən şagirdlərə tapşırıqlar ayrı-ayrılıqda verilir. Tapşırıq 1.4 onları ehtiyacı olanlara yardım etmək üçün qəbul edilən qəfil qərarlarla və ardıcıl işlərin müsbət nəticələri ilə tanış edir. Bundan əlavə müəllim şagirdlərdən hərəkətin analizini tələb edir. Tapşırıq üzərində işləmək üçün şagirdlərə iki mətn verilir "Albert Şvaytserin qərarı" və "Kreq Kyelbürqerin qərarı".

# Gözlənilməyən qərarlar

## Albert Şvaytserin qərarı

1905-ci ildə Şvaytser tibbi bilik alıb Afrikaya həkim getməyi qərara aldığını dostlarına bildirdi. O, Lambarene xəstəxanası üçün pul toplamağa başladı. Pulun əsas mənbəyini fəlsəfə və musiqişünaslıqda yazdığı kitaqbların nəşri təşkil edirdi. O, Fransada Qırmızı Xaç Cəmiyyəti Missiyası ilə əlaqə saxladı. Missiya xəstəxananın inşasını öz üzərinə götürdü.

1913-cü ilin baharında artıq tibb üzrə doktor olan Şvaytser həyat yoldaşı ilə (o, tibb bacısı kurslarını keçmişdi) birlikdə Qabona yola düşdülər. Xəstəxananın tikintisi hələ heç başlamamışdı. Həkim xəstələri qəbul edir və paralel olaraq xəstəxananı inşa edirdi. İldə bir dəfə Avropaya gedir və musiqişünaslıq üzrə və xəstəxanası haqqında mühazirələr oxuyurdu. Bununla götürdüyü gəliri xəstəxanaya xərcləyir və onu dünyaya tanıdırdı. Bunun nəticəsində bir çoxları Lambarene xəstəxanasına yardım göstərdilər. 1924-cü ildən Avropadan növbə ilə gələn həkimlər Şvaytserə yardım edirdilər.

## Kreq Kyelbürqerin qərarı

Kreq başa düşdü ki, uşaq da ədalətsizliyə qarşı mübarizə apara bilər. O, özünün 11 sinif yoldaşları ilə birlikdə təşkilat yaratdı. Təşkilatın fransızca adı “Enfants Entraide” sözbəsöz “Uşaqların qarşılıqlı yardımı” kimi, ingilis dilində isə “Free The Children” “Uşaqları azad edin” kimi tərcümə olunur. Təşkilat uşaqların yoxsulluqdan və istismardan azad edilməsi məqsədini daşıyır.






Kreqin ideyası qar topu kimi diyirləndi. Kreq bir çox ölkələri gəzib dolaşdı və dəhşətli şəraitdə olan uşaqları görüb onların əhvalatlarını bütün dünyaya bildirdi. Onun dünyada çoxlu sayda tərəfdaşı və azarkeşi var. Bəziləri maliyyə yardımı, bəziləri peşəkar yardım göstərirlər. Bir çox insanlar təşkilatın ismarıcını yayımlamağa və onun məqsədlərini izah etməyə çalışırlar. "Uşaqları azad edin" təşkilatı dünyanın 45 ölkəsində bir milyondan çox uşaqlar üçün proqramlar həyata keçirir. Proqramlar bu uşaqlara təhsil almaq, onların ailələri üçün yoxsulluğun qarşısını almağa şərait yaradır, yaşayış şəraitini yaxşılaşdırmağa (su olmayan kəndlərə içməli su kəmərini çəkir, çünki uşaqlar uzaqdan su daşımalı olurlar) imkan yaradır, xəstəxanalara yardım göstərirlər. Yoxsulluqdan azad olmaq və məktəbdə təhsil almaq ailələrə imkan verir ki, kiçik yaşlarından övladlarını işləməyə qoymasınlar.

"Uşaqları azad edin" təşkilatının loqosu

**Tapşırıq 1.4 Birinci və üçüncü qruplar üçün**

"Albert Şvaytserin qərarını" oxuyun və suallara cavab verin:

a) Şvaytserin hərəkəti hansı nəticəni verdi?
b) Hamı belə edə bilərmi və ya yox?
c) Məqaləni oxuduqdan sonra şərti olaraq Şvaytserin əməllərinin planını (ardıcıllığını) yazın

**Tapşırıq 1.4 İkinci və dördüncü qruplar üçün**

"Kreq Kyelbürqerin qərarı"nı oxuyun və suallara cavab verin:

a) "Uşaqları azad edin" təşkilatının işi hansı nəticəni verir?
b) Bu təşkilat bütün uşaqların problemlərini həll edə bilirmi?
c) Məqaləni oxuduqdan sonra Kreqin əməllərinin planını (ardıcıllığını) yazın.

Şagirdin kitabı səh. 16-17



Əlavə 1

## Şagirdlər tərəfindən sadalanan problemlər:

1. Valideynlərlə ünsiyyət
2. Müəllimlərlə ünsiyyət
3. Çirkləndirilmiş küçə *
4. Uşaqlar tərəfindən bir-birini alçaltmaq (sosial zəmində, xarici əlamətlərinə görə) – sinizm
5. Alkoqoldan asılılıq *
6. Dava-dalaş, küçə söhbətləri
7. İşlə təmin olma problemi – işsizlik
8. Kitab və kompüter *
9. Küçədəki dilənçilər
10. Narkomaniya*
11. Nalayiq sözlər
12. Sosial ədalətsizlik
13. Uşaqların fiziki əməkləri (ailəyə yardım etmək üçün və ya ailəni saxlamaq üçün)*
14. Siqaretdən asılılıq*
15. Qızlara qarşı aqressiya
16. Mandatur ilə münasibət
17. Televiziya verilişlərinin keyfiyyəti
18. Kitabların daşınması (ağırdır)*
19. Azad fikir bildirmək imkanının məhdudiyyəti
20. Erkən evlilik
21. Müəllimin əməkhaqqı
22. Gigiyena ümumilikdə*
23. İqtisadi problemlər
24. Cəmiyyətdə inamsızlıq
25. Küçə itləri
26. Yiyəsiz uşaqlar *
27. Hökümət ehtiyacı olanlara yardım etmir
28. Cəmiyyətdə mərhəmətin olmaması
29. Qarşılıqlı anlayış problemi
30. QİÇS*
31. Xalq hiddətlənmişdir
32. Yersiz zarafatlar
33. Məktəbdə həbsxana hissi
34. Zorakı tədris mühiti
35. 11-ci sinif şagirdləri məcburdurlar ki, 15:30-a qədər məktəbdə olsunlar
36. Məktəbdə siqaret çəkməyə qoymurlar
37. Forma daşımağa məcbur edirlər (Qara şalvar)
38. Buraxılış imtahanları
39. Məktəbdə təmizlik *
40. Ailə münaqişələri
41. İrqi diskriminasiya*
42. Gender diskriminasiyası*
43. Avtoritetlərə qarşı sağlam olmayan yanaşma
44. Dini dözümlülük*

---

* Layihənin həyata keçirilməsi üçün tövsiyə olunan mövzular

# Mövzu 2





# Əməkdaşlıq. Tərəfdaşların seçim prinsipi. Əməkdaşlıq qaydaları. Əməkdaşlıq zamanı münaqişə



# Mövzu 2

# Əməkdaşlıq. Əməkdaşların seçim prinsipi. Əməkdaşlıq qaydaları. Əməkdaşlıq zamanı münaqişə

Qarşıdakı mövzu üzərində işlədikdə müəllim və şagirdlər nailiyyətli və nailiyyətsiz əməkdaşlıq misallarını nəzərdən keçirir, nailiyyətsizliyin səbəblərini təhlil edir, nailiyyətli əməkdaşlıq üçün qaydaları işləyib hazırlayırlar. Müxtəlif mümkün tərəfdaşlıq funksiyaları ilə müstəqil şəkildə tanış olurlar.

**Dərsin məqsədi:**

- şagirdlərə əməkdaşlığın tərəflərini göstərmək;
- ümumi layihə üzərində işləyən tərəfdaşların seçim prinsipləri və şagirdlərlə birlikdə əməkdaşlıq qaydalarının işlənib hazırlanması;
- iş prosesində mümkün münaqişələrin idarə olunma qaydaları ilə tanışlıq;
- layihə həyata keçirildikdə şagirdləri mümkün tərəfdaşların funksiyaları ilə tanış etmə

## Birinci dərs

Ötən və hazırkı dərslərin arasında körpünün salınması üçün ev tapşırığı nəzərdən keçirilir. Müzakirədən əvvəlcə şagirdlər iki qrupa (tapşırığın mətninə əsasən birinci və üçüncü, ikinci və dördüncü) bölünürlər. Onlar 10 dəqiqə ərzində qrupda ev tapşırığının (1.4) fərdi cavablarını bir-biri ilə müqayisə edir və Albert Şvaytserin və Kreq Kyelbürqerin əməllərin ardıcıllığının müqayisə edilmiş variantlarını müəllimə və sinfin ikinci hissəsinə təqdim edirlər.

Əməllərin ardıcıllığı ehtimal ki, belə bir şəkil alacaqdır:

I. Şvaytser problemi gördü və onda afrikalılara yardım etmək istəyi yarandı.

– İş planını təsvir etdi:

- tibbi təhsil almaq;
- Fransa missiyası ilə əlaqə yaratmaq;
- kitabları dərc etmək məqsədilə vəsait toplamaq;
- Lambareneyə getmək və yerli əhalini müalicə etmək;

– Lambareneyə gedənə qədər planın birinci üç bəndlərini həyata keçirdi.

Mühazirələr oxumağa başladı, xəstəxananı dünyaya tanıtdırdı və bununla da çoxlu dəstək qazandı, nəticədə xəstəxanaya maddi yardım göstərirdilər.

– Avropalı həkimlərin növbə ilə Lambareneyə getmələrinə nail oldu.

II. Kreq problemi gördü və onda uşaqlara yardım etmək istəyi yarandı.

– Həmfikirlərini topladı.

– İş planını təsvir etdi:

- uşaqların vəziyyətini öyrənməyə başladı;
- onların vəziyyətini dünyaya tanış etdi;
- fondların axtarışı;
- layihələrin fəaliyyətə başlaması.

Təqdim edilən işlər lövhəyə yapışdırılmalıdır.

Bu işlərin əsasında aşağıda sadalanan sualların ətrafında müzakirələr aparılır. Bu suallar şagirdlərə əməkdaşlığın mənasına varmaq, nailiyyətli əməkdaşlıq üçün əlverişli şərtlərin və nailiyyətsiz əməkdaşlığın səbəblərini anlamaq, həvəskarlar və təşəbbüs anlayışları ilə tanış olmaq imkanını verirlər.

– Bu iki əhvalat arasında ümumi olan nədir? (hər ikisi problemi gördü; yardım göstərməyi qərara aldı; hər ikisi kiminləsə əməkdaşlıq etməyi qərara aldı; hər iki halda mərhəmətli və aktiv insanlara toxunulur və s.).

– Nə üçün hər ikisi də əməkdaşlıq barədə düşündülər?

– Şvaytserin Fransanın Qırmızı Xaç Cəmiyyəti ilə əməkdaşlığı necə sona çatdı? (nailiyyətsiz).

– Başqaları ilə onun əməkdaşlığı nə dərəcədə nailiyyətli alındı?

– Kreq nəyin əsasında əməkdaşları seçdi? (ümumi maraqları ilə)

Nailiyyətsiz əməkdaşlığın səbəbi nə ola bilər? (əməkdaşların düzgün seçilməməsi, onların məsuliyyətsizlikləri, onlardan asılı olmayan səbəblər və s.).

– Nailiyyətli əməkdaşlıq üçün əhəmiyyətli olan nədir?

– “Əməkdaşlıq” sözü sənə nəyi söyləyir?

–Başqa dildə onun necə adlandırıldığını bilirsinizmi?

(ingiliscə – cooperation, collaboration, fransızca – collaboration,coopération, rusca – сотрудничество_________).

Əməkdaşlıq üçün tərəfdaş seçilir:

- maraqlara əsasən;
- bacarığa əsasən;
- səlahiyyətlərə əsasən;
- şəxsi xassələrinə əsasən və s.

Əməkdaşlıq ciddi münasibətdir və müəyyən qaydalara əməl etməyi tələb edir.

– əməkdaşlıq zamanı hansı qaydalara əməl etmək lazımdır?

Şagirdlər tərəfindən təklifedilən əməkdaşlıq qaydaları müqayisə edilir və lövhəyə yazılır. Məsələn:

- bir-birini dinləmək;
- bir-birinə hörmət etmək;
- planı birlikdə tərtib etmək;
- verilən müddətlərə riayət etmək və s.;

Əməkdaşlıq başqa-başqa səviyyələrdə həyata keçirilə bilər.

I. Əvvəlcədən tərəfdaşı maraqlarına əsasən seçirsən. Bu halda uzunmüddətli əməkdaşlıq üçün klub təsis etmək olar.

Klub ümumi maraqları və ya məqsədləri olan insanların könüllü birliyidir. Klublar müxtəlif istiqamətdə ola bilərlər: idman, musiqi, dini, mülki, ictimai fəaliyyət, xeyriyyə işləri və s.

II. Bu və ya digər problemi həll edə bilən və ya həll etmək səlahiyyətində olan insanlarla və ya təşkilatlarla əməkdaşlıq. Bunlara qeyri-hökumət təşkilatlarını, məktəbin idarəetməsini, yerli özünüidarəetməni və s. aid etmək olar.

Layihəni həyata keçirən zaman tərəfdaşlar arasında münaqişə baş verə bilər. Bu hal da dərsdə müzakirə olunmalıdır.

- Əməkdaşlar arasında münaqişə baş verə bilər və ya yox?

- Onu necə həll etmək olar?

Münaqişənin həllinin universal resepti yoxdur, amma hər bir halda, lazımdır:

- münaqişənin səbəbi ayırd edilsin. Bunun üçün tərəflər bir-birlərini dinləməlidirlər;

- tərəflər yaranmış vəziyyətdən çıxış yolunu tapmalıdırlar;

- əgər çıxış yolu tapılmırsa, o zaman maraqlı tərəf əməkdaşlıq üçün başqa tərəfdaş axtarmalıdır.

Müəllim şagirdlərdən xahiş edə bilər ki, öz sinif təcrübələrindən baş tutmayan əməkdaşlıq misallarını xatırlasınlar və təqdim edilən sualların fonunda bu hadisəni analiz etməyə çalışsınlar. Konkret misal şagirdlərə məsələni daha yaxşı anlamaqda yardım edəcəkdir. Əməkdaşlıqdan başqa müəllim təşəbbüs və həvəskarlıq mövzularını təhlil edə bilər. O, “təşəbbüsün” izahatını onlara xatırlada bilər.

## 1 İzahat

*Təşəbbüs hər hansı bir işdə rəhbərlik, lazımi anda müstəqil, aktiv hərəkət etmək bacarığı.*

- “Həvəskarlıq” sözünü necə başa düşürsünüz?
- Albert Şvaytser və Kreq Kyelbürqer haqqında verilən mətnlərdə həvəskarlıq misallarını gördünüzmü?

## 2 İzahat

Həvəskarlıq təmənnasız şəkildə başqasının xeyrinə görülən könüllü işdir.

– Təşəbbüs və həvəskarlıq arasında hansı fərq var?

Sonda, müəllim şagirdlərə evdə yerinə yetirmək üçün Tapşırıq 2.1-i verir. Ev tapşırığını izah etdikdə müəllim diqqəti ona yönəltməlidir ki, problemin müəyyən hissəsini həll etmək də bir işdir. Məsələn, vərəm haqqında məlumatın çatdırılması problemi həll etmir, amma onun qarşısının alınmasına imkan yaradır. Müəllim göstərməlidir ki, şagirdin kitabında təşkilatların funksiyaları haqqında məlumat verilir və tapşırıqları yerinə yetirdikdə şagirdlər onunla tanış olmalıdırlar. Bundan əlavə, müəllim onu da göstərməlidir ki, tapşırığın yerinə yetirilməsini yüngülləşdirmək məqsədilə onlar cədvəldən istifadə edə bilərlər.

**L ü ğ ə t**

*Gender diskriminasiyası* – *vətəndaşların onların motivləri* əsasında *hüquqlarının pozulması.*

| Problemlər/ təşkilatlar | Yerli özünüidarəetmə | | Qeyri-hökümət təşkilatları | | | Beynəlxalq təşkilatlar | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | |
| Çirkləndirilmiş küçə | | | | | | | | |
| Gender diskriminasiyası | | | | | | | | |
| Siqaretdən asılılıq | | | | | | | | |

**Tapşırıq 2.1**

a) Birinci dərsdə sizin tərəfinizdən doldurulan problemlərin sxemini diqqətlə öyrənin.

b) Buraxılan problemləri əlavə edin (əgər hər hansı birini problem hesab edirsinizsə).

c) Əlavələrdə (1-4) verilən məlumatı nəzərdən keçirin və onun hansı növdə olmasını müəyyənləşdirin. Bu, layihə üzərində işlədikdə sizə yardım edəcəkdir.

ç) Sadalanan problemlərdən hər biri üçün düşünün ki, hansı təşkilat onun həllində iştirak edə bilər. Aşağıda verilən cədvəldən istifadə edə bilərsiniz.

d) Həllində (və ya onun qismən həllində) iştirak edə biləcəyiniz problemləri ayırın. Bu, nəinki bütöv problemin deyil, eləcə də, onun hissəsinin həlli (problem məktəb səviyyəsində həll oluna bilər, amma ölkə səviyyəsində həllini tapmaya da bilər) ola bilər.

## Özünüidarəetmə sistemi və funksiyaları haqqında məlumat

Özünüidarəetmə ictimai idarəetmənin elə bir formasıdır ki, bu zaman müəyyən ərazinin sakinləri cəmiyyət yaradırlar və mərkəzi hakimiyyət də onu tanıyır və ona hüquqi status verir.

Yerli özünüidarəetmənin heyəti orqanı - sakrebulodur, icraçı orqanı isə qamqeoba/meriyadır.

Yerli hakimiyyət əhalinin tələbatlarını ödəməlidir.Başqa cür desək, yerli əhəmiyyətli məsələləri həll etməlidir.Yerli hakimiyyət əhalinin həyat şəraitinin yaxşılaşdırılması üçün bölgədə iqtisadiyyatın inkişafına və vətəndaşların əmin-amanlığına və stabilliyin təmin edilməsinə qayğı göstərməlidir. Eləcə də, etnik azlıq nümayəndələri üçün elə bir şərtlər yaratmalıdır ki, onlara qərarların qəbulunda iştirak etmək imkanı verilsin.

Daha ətraflı məlumat almaq üçün Əlavə 1-lə tanış olun.

Qanunla özünüidarəetmənin həyata keçirilməsi məktəblərdə də nəzərdə tutulmuşdur.Məktəbin qəyyumlar şurası və şagirdlərin özünüidarəetməsi məktəbin idarəetmə orqanlarıdır.Qəyyumlar şurası məktəbin direktorunu seçir, məktəbin büdcəsini təsdiq edir və maliyyə xərclərinə və əmlakın sərəncamına nəzarət edir, məktəbin daxili nizamnaməsini təsdiq edir, əmək müqavilələrinin şərtlərinin yerinə yetirilməsinə nəzarət edir.Şagirdlərin özünüidarəetməsi məktəb üçün əhəmiyyətli məsələləri təhlil edə və qəyyumlar şurasına təqdim edə bilər. Məktəbin daxili nizamnaməsi ilə əlaqədar ona təkliflər daxil edə, məktəbin klubunu

yarada bilər. Tam məlumatı 2,3 və 4 Əlavələrində nəzərdən keçirə bilərsiniz.

## Qeyri-hökümət təşkilatları və beynəlxalq təşkilatlar haqqında məlumat

Qeyri-hökumət təşkilatı ictimai təşkilatdır. O, vətəndaşların könüllü birliyini təqdim edir. Onda ümumi maraqları və məqsədləri olan insanlar birləşirlər. O, hökumətdən asılı olmayan bir təsisatdır. Bəzən yerli qeyri-hökumət təşkilatı başqa ölkənin hökuməti tərəfindən maliyyələşdirilir. Dünyada cəmi 40000-ə qədər beynəlxalq qeyri-hökumət təşkilatları vardır. Yerli əhəmiyyət kəsb edən qeyri-hökumət təşkilatlarının sayı isə daha yüksəkdir.

Qeyri-hökumət təşkilatlarının tiplərini istiqamətlərinə və əməkdaşlıq səviyyələrinə əsasən ayırmaq olar.

İstiqamətə əsasən: xeyriyyə, xidməti, ictimai təşkilatlar var. Əməkdaşlıq səviyyəsinə əsasən isə - cəmiyyətdə əsaslanmış, şəhər, milli, beynəlxalq.

Bir neçə təşkilatların fəaliyyətləri ilə tanış olaq:

1. **BMT-nin Uşaq Fondu** – UNICEF (United Nations Children's Fund). Onun Gürcüstandakı nümayəndəliyi uşaqların hüquqlarının müdafiəsi, sağlamlığın mühafizəsi və təhsil sahələrində proqramları həyata keçirir. http://www.unicef.org/georgia
2. **BMT-nin İnkişaf Proqramı** – UNDP (United Nations Development Programme) BMT-nin inkişaf şəbəkəsidir. O, başqa-başqa millətlərin çoxtərəfli inkişafına xidmət edir.

   http://www.undp.org.ge

   Sizin üçün bu təşkilatın növbəti istiqamətləri maraqlı ola bilər:

✦ **Environment & Energy** – BMT-nin "Ətraf mühit və enerji" inkişaf proqramının məqsədi su ehtiyatlarının və ətraf mühitin çirklənmədən qorunmasında Gürcüstana yardım göstərmək; eləcə də Gürcüstanın yerli ehtiyatlarının istifadəsinə və biomüxtəlifliyin qorunub saxlanmasına şərait yaratmaqdır.

✦ **Economic Development** – BMT-nin inkişaf proqramı "İqtisadi inkişaf" Gürcüstana sabit iqtisadi inkişaf işində

yardım edir. Ölkədəki biznesin inkişafına və aşağı təminatlı insan qruplarının ona cəlb olunmasına xüsusi diqqət verilir.

3. **Save the Children** (Uşaqları xilas edək) qabaqcıl beynəlxalq təşkilatlardan biridir. O, başqa-başqa ölkələrin əhalisinin müdafiəsiz hissəsinə yardım göstərir – küçə uşaqların, qadınlara, məcburi köçkünlərə. Onun işi səhiyyəyə, təhsilə və qadın və gənclərin ehtiyacları ilə əlaqədar məsələlərin həllinə yönəlmişdir.
   http://www.savethechildren.org
4. **PH International** beynəlxalq təşkilatdır. Onun məqsədi vətəndaş liderliyinin inkişafı, müasir texnologiyaların istifadəsi və mədəniyyətlərarası münasibətlərin dəstəkləndirilməsi yolu ilə güclü cəmiyyət yaratmaqdan ibarətdir.
   http://www.ph-int.org
5. **USAID** (ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi) – uzun illər ərzində USAİD yoxsulluqla mübarizə aparmağa və demokratik islahatlar keçirməyə çalışan ölkələrə yardım edir. O, iqtisadi artım, energetikanın və ətraf mühitin qorunması, demokratiya və idarəetmə, səhiyyə və sosial inkişaf yönümlü müxtəlif proqramları həyata keçirir.
   http://www.usaid.gov
6. **CENN** – Qafqazın Ətraf Mühitin Mühafizəsi qeyri-hökumət təşkilatlarının şəbəkəsi (Caucasus Environmental NGO Network)
   http://www.cenn.org

Siz CENN-in növbəti istiqamətləri ilə maraqlana bilərsiniz:

**Gender və ətraf mühit** – bu layihə bir neçə ildir ki, davam edir və genderə əsaslanan layihələrin nə dərəcədə nailiyyətli və effektli olduğunu və təbii ehtiyatların qorunması və istifadəsi işində qadınların hansı rol oynadıqlarını araşdırır.

**İqlim dəyişkənliyi** – bu layihənin məqsədi hal-hazırda regionun və bəşəriyyətin qarşısında duran ən kəskin problemlər haqqında Cənubi Qafqaz xalqlarının məlumatlandırılmasının artırılmasıdır.

Təbii ehtiyatların qorunması və istifadəsi həm ətraf mühit, eləcə də, cəmiyyət üçün olduqca əhəmiyyətlidir. Təşkilat bu məsələ ilə maraqlanan qruplara məsləhətlər verməyə çalışır.

7. Gürcüstanın Gənc Hüquqşünaslar Assosiasiyası əhəmiyyətli yerli təşkilatdır. O, çoxtərəfli işlərdə cəmiyyətdə hüquqi təfəkkürün artırılmasında, qanuna hörmət göstərməkdə, insan hüquqlarının qorunmasında, mühafizə mexanizmlərinin inkişafında və hər növ diskriminasiya xaricində əlçatılmanın təmin edilməsində ciddi yer tutur. http://www.gyla.ge
8. Gürcüstanın Gənc İqtisadçılar Assosiasiyası Gürcüstanda biznes mühitinin yaxşılaşdırılmasına, eləcə də, demokratik idarəetmənin və iqtisadi islahatların və gənc iqtisadçıların peşəkar inkişaflarına imkan yaratmağa çalışır. http://www.economists.ge

Gürcüstandakı təşkilatların internet-ünvanlarını təklif edirik. Onların arasında sizin üçün maraqlı məlumatları axtara bilərsiniz:

Qeyri-hökumət təşkilatları və fondlar haqqında məlumatlar növbəti internet-səhifədə verilir:

http://www.afba.ge.

Əvvəlcə menyuda linkləri və sonra da qeyri-hökumət təşkilatlarını axtarmalısınız.

İctimai qeyri-hökumət təşkilatları və fondlar:

http://www.yell.ge

## Klubların təyinatı və fəallıqlar barəsində məlumat

Klub ümumi maraqları və ya məqsədləri olan insanların könüllü birliyidir. Klublar müxtəlif istiqamətdə ola bilərlər: idman, musiqi, mülki, dini, ictimai fəaliyyət, xeyriyyə işləri və s. Klublar hələ qədim zamanlardan mövcuddur. Məktəb klublarının əsaslarının qoyulmasının təcrübəsi dünyanın müxtəlif ölkələrində yayılmışdır. Klubun adı, nizamnaməsi, fəaliyyət planı, qəyyumu olmalıdır. Qəyyum əsasən müəllim olur. O, klub üzvlərinin işinə yardım edir. Avropanın bir çox ölkələrində məktəbin Avropasayağı klubu fəaliyyət göstərir. Belə bir klub Batuminin 2 saylı ictimai məktəbində də vardır. Bu, birlikdə çalışan şagirdlərin dəstəsidir, onun üzvləri Avropa tarixində, coğrafiyasında, ənənələri və mədəniyyətində biliklərini dərinləşdirir, məktəbdə və yerli cəmiyyətdə bu biliyi yayımlayırlar. Nümunə üçün belə

bir klubun nizamnaməsi (Əlavə 4) ilə tanış olun. Layihədən fərqli olaraq klublar daha uzunmüddətli əməkdaşlığı nəzərdə tuturlar. Klub uzunmüddətli bir birlikdir. Onun tərkibi dəyişə, amma işin əsas istiqaməti dəyişməz qala bilər. Məsələn, xeyriyyə klubunun olması illər ərzində mümkündür, çünki ətrafımızda hər zaman yardıma ehtiyacı olan insanlar olur. Elə buradaca ictimai mənfəət gətirən bir neçə uzunmüddətli layihə ideyasını və artıq mövcud klubların fəallıqlarının təsvirini təklif edirik.

**Məktəbin mülki klubu –** İHHŞ Rustavi 2 saylı məktəbin mülki klubunun əsası 2010-cu ildə Maarif Təşəbbüslərinin Gürcü Assosiasiyasının dəstəyi ilə qoyulmuşdur. Ona mülki təhsil müəllimləri rəhbərlik edirlər. Klubun üzvləri doqquzuncu və onuncu siniflərin 40-a yaxın şagirdləridir.

Klub müxtəlif növ layihələri və fəallıqları planlaşdırır və həyata keçirir. Məsələn, sağlam həyat qaydasının yayımlanması məqsədilə klub gecə təşkil etmiş və şagirdlər burada güləş üzrə dünya çempionu Quram Quqenişvili ilə görüşüb söhbət etmişdilər. Hal-hazırda klubun üzvləri Maarif Təşəbbüslərinin Gürcü Assosiasiyasının kiçik qrantlar müsabiqəsinə cəlb olunmuş və layihələr hazırlayırlar.

Qivi Zaldastanişvili adına Tbilisi Amerika Akademiyasında 2001-ci ildən xeyriyyə klubu fəaliyyət göstərir. Bu klubun qəyyumu gürcü dili və ədəbiyyatı müəllimidir. Hal-hazırda xeyriyyə klubuna 40-a qədər üzv birləşmişdir. Başdan cəmi bir neçə şagird uşaq və qocalar evinə, monastrlara gedir və onların sakinlərinə gündəlik işlərdə yardım edirdilər. Müəllim fotoşəkillər çəkir və hər bazar ertəsi məktəbin dəhlizində bu şəkillərin sərgisini təşkil edirdi. Yavaş-yavaş daha çox şagird klubla maraqlanmağa başladı və klub da böyüdü.

**Yaşıl klub**– bu klubun üzvləri azad torpaq sahələrini axtarıb tapa, yerli özünüidarəetmə ilə razılaşıb həmin sahəni yaşıllaşdıra bilər; şəhərin/kəndin planlaşdırma xidmətinin üzvləri ilə (parkların, bağların planlaşdırılması) əməkdaşlıq edə, yolları təmizləyə bilərlər (yolu və ya yolun bir hissəsini seçib nizama sala bilərlər və s.).

**Mədəni irs klubu -** bu klubun üzvləri kəndlərində / şəhərlərində/ məhəllələrində/ bölgələrində tarixi abidə(ləri) axtarıb onları təmizləyə, abidə haqqında məlumat toplaya, buklet və ya sayt yarada bilər; həmfikirləri və təşkilatları toplayıb, hökumət və ya özəl təşkilatlarla tarixi abidələr haqqında informasiya tapmaq, yayımlamaq və bu abidələrə qayğı göstərmək məqsədilə əməkdaşlıq edə bilərlər. Belə bir klub Tbilisinin 42 saylı ictimai məktəbində yaradılmışdır.

**Uşaqların hüquqlarının müdafiə klubu -** bu klubun üzvləri uşaqlara hüquqlarını izah edə, uşaqların hüquqlarının müdafiəsi üzərində çalışan hökumət və ya qeyri-hökumət təşkilatlarını araşdıra və bu təşkilatların fəaliyyəti barədə uşaqlara məlumat çatdıra bilərlər. Hüquqları pozulduğu halda uşaqlara yardım edə bilərlər ki, onlar müvafiq orqanlara səslərini çatdıra bilsin; uşaqların müdafiəsini təmin etmək üçün insan və təşkilat resurslarını səfərbərləşdirə bilsin; uşaqlara öz hüquqlarının qorunmasında fəal iştirak etmək imkanını verə bilərlər.

**Məktəbin radioxətti/ qaynar xətt** – bu klubun üzvləri məktəbin radioxəttini təşkil edə və apara bilərlər. Radioverilişlərdə şagirdlər üçün aktual problemlər və şagirdlər tərəfindən həyata keçirilən layihələr barəsində, onların yayımlanması məqsədilə söhbət aparıla bilər.

**Məktəbə qayğı göstəririk**– idman avadanlıqlarının axtarılması və idman zallarının abadlaşdırılması, idman meydançalarının təmiri; kitabxananın zənginləşdirilməsi və səliqəyə salınması; həyətə qulluq edilməsi; təmizliyə riayət edilməsi və s. Bu ideyanın həyata keçirilməsi həm bir dəfəlik layihə, eləcə də, daim fəaliyyətdə olan klubun yaradılması vasitəsilə mümkündür.

**Mütaliənin yayımlanması -** hal-hazırda Gürcüstanda aktual məsələlərdən biridir. Burada da klubun işi həm birdəfəlik aksiyanın keçirilməsi, eləcə də, uzunmüddətli layihənin həyata keçirilməsi və ya bir neçə il əvvəlcədən müəyyənləşdirilmiş plan və məqsədlərlə mümkündür.

Bu ideyaya Elm və Təhsil Nazirliyi tərəfindən təşəbbüs edilən layihə “Kitabın dostu” uyğundur. Layihənin məqsədi uşaqlarda oxunun, dinləmənin və oxunulanın dərk edilməsi bacarığını inkişaf etdirmək, mütaliənin və oxunun yayılmasına dəstək verməkdir. Layihənin konsepsiyasına əsasən yuxarı sinif şagirdləri, tələbələr, yazıçılar, məşhur şəxsiyyətlər və digər həvəskarlar aşağı sinif şagirdlərinə sinifdənxaric ədəbiyyatı oxuyurlar və bundan sonra oxunulan materialın ətrafında diskussiya aparılır. Analoji layihə dünyanın bir çox ölkələrində həyata keçirilir və ona bir çox məşhur insanlar cəlb olunmuşlar.

**Mətbəxin xeyriyyə bazarı -** bu ideyanın həyata keçirilməsi üçün növbəti fəallıqları planlaşdıra bilərsiniz: etnik mətbəxlərin əsərlərinin müsabiqəsi və qarışıq etnik tərkibli məktəblərdə satışı, ən yaxşı reseptlərin aşkar edilməsi və mübadiləsi və s. Bazarlıqdan daxil olan gəlir məktəblərə və sosial cəhətdən aztəminatlı şagirdlərə xərclənə bilər.

**Müdafiəçilərimizlə tanış olaq** – şagirdləri polis və yanğın xidmətinin işləri ilə tanış etmək, balacalar üçün təhlükəsizlik qaydaları haqqında təqdimatlar təşkil etmək, məktəblərdə evakuasiya planlarını tərtib etmək və s. Bu cür ideyaları birdəfəlik layihələr kimi də həyata keçirmək olar.

**Qrafit** – divarların ağardılması və ya yazıların təmizlənməsi, məktəbin estetik tərəfinə qayğının göstərilməsi.

## Problem – tərəfdaş

Müxtəlif təşkilatların fəaliyyəti ilə tanışlıqdan sonra tərəfdaşın seçilməsi üçün əvvəlcədən müəyyənləşdirməlisiniz ki, hansı növ problemi həll etməyə çalışırsınız.

Problemlər şərti olaraq növbəti sxemə bölünə bilərlər: ailədə problemlər, məktəbdə, kənddə, ölkədə, yad ölkədə, qlobal problemlər....



Əlavə 2 (1)

## Gürcüstanın orqan qanunu Yerli özünüidarəetmə məcəlləsi[1]

**Maddə 1. Qanunun fəaliyyət sahəsi**

Bu qanun yerli özünüidarəetmənin həyata keçirilməsinin hüquqi əsaslarını, yerli özünüidarəetmə orqanlarının səlahiyyətlərini, onların yaranma və fəaliyyət qaydalarını, onların maliyyələri və əmlakını, vətəndaşlarla, dövlət hakimiyyətinin orqanları və ictimai, özəl hüquqi şəxslərlə münasibətlərini, o cümlədən, yerli özünüidarəetmə orqanlarının işinə dövlət nəzarətini və birbaşa dövlət idarəetməsinin həyata keçirilməsini müəyyənləşdirir.

**Maddə 2. Yerli özünüidarəetmə anlayışları**

1. Yerli özünüidarəetmə özünü idarəedən vahiddə qeydiyyatdan keçmiş Gürcüstan vətəndaşlarının hüquq və imkanlarıdır, onlar tərəfindən seçilmiş yerli özünüidarəetmə orqanlarının vasitəsilə Gürcüstan Qanunvericiliyinin əsasında yerli əhəmiyyət kəsb edən məsələləri həll etsinlər.

2. Özünüidarəetmə vahidi munisipalitetdir. Munisipalitet yaşayış məntəqəsidir (özünüidarəedən şəhər), onun inzibati sərhədləri və ya yaşayış məntəqələri (özünüidarəedən icma) var. Onun inzibati sərhədləri və inzibati mərkəzi, yerli özünüidarəetmənin heyəti və icraçı orqanları (irəlidə - munisipalitet orqanları) və öz mülkiyyəti, büdcəsi, gəlirləri var. Munisipalitet müstəqil ictimai hüquqlu hüquqi şəxsdir.

**Maddə 3. Munisipalitetlər – özünüidarəedən şəhər və özünüidarəedən icma**

1. Yerli özünüidarəetmə munisipalitetlərdə - özünüidarəedən şəhər və özünüidarəedən icmada həyata keçirilir.

2. Özünüidarəedən şəhər - şəhər kateqoriyalı yaşayış məntəqəsidir, bu qanuna müvafiq olaraq ona munisipalitet statusu verilmişdir və ya veriləcəkdir.

3. Özünüidarəedən icma bir neçə məntəqələr birliyidir, bu qanuna müvafiq olaraq ona munisipalitet statusu verilmişdir və ya veriləcəkdir.

1. Qanunla tam olaraq tanış olun https://matsne.gov.ge/index.php?option=com_ldmssearch&view=docView&id=2244429&lang=ge

**Maddə 4. Əhalinin məskunlaşmasının ilkin ərazi vahidi və munisipalitetin inzibati vahidi**

1. Əhalinin məskunlaşmasının ilkin ərazi vahidi elə bir yaşayış məntəqəsidir, hansının adı, inzibati sərhədləri, ərazisi və qeydiyyatda olan əhalisi vardır. Məskunlaşma kateqoriyalarıdır:

a) kənd – yaşayış məntəqəsidir, onun tərkibinə əsasən kənd-təsərrüfatı təyinatlı torpaq və başqa təbii resurslar daxildir və onun infrastrukturu əsasən kənd-təsərrüfat işlərinin həyata keçirilməsinə yönəlmişdir;

b) qəsəbə - yaşayış məntəqəsidir, onun ərazisində istehsalat müəssisələri və ya turistik və kurort müəssisələri və ya müalicəvi və sosial-mədəni müəssisələr yerləşir və qəsəbə yerli iqtisadi-mədəni mərkəz funksiyalarını yerinə yetirir. Qəsəbənin infrastrukturu əsaslı olaraq kənd-təsərrüfatı işin həyata keçirilməsinə yönəlməmişdir. Qəsəbə kateqoriyasına yaşayış məntəqəsi daxil ola bilər, əgər onun özünüidarəetmə vahidinin inzibati mərkəzi varsa və ya növbəti iqtisadi inkişaf və əhalinin artım perspektivi olsa;

c) şəhər – yaşayış məntəqəsidir, onun ərazisində istehsalat müəssisələri və turistik, müalicəvi və sosial-mədəni müəssisələrin şəbəkəsi və yerli iqtisadi-mədəni mərkəzin funksiyasını yerinə yetirir. Şəhərin infrastrukturu kənd-təsərrüfatı işinin həyata keçirilməsinə yönəlməmişdir. Şəhər kateqoriyasına elə bir yaşayış məntəqəsi aid ola bilər ki onun qediyyatda olan əhalisinin sayı 5000-dən çox olsun. Bir yaşayış məntəqəsinin qeydiyyatında olan əhalinin sayı 5000-dən azdırsa, şəhər kateqoriyası ona özünüidarəetmə vahidinin inzibati mərkəzi olduqda və ya onun gələcək iqtisadi inkişaf və əhalinin artımı kimi perspektivi olsa, yaxud da bu qanunun 3-cü maddəsinin 2-ci bəndinə müvafiq olaraq özünüidarəedən şəhər kimi müəyyənləşdirilsə verilə bilər.

**Maddə 6. Gürcüstan vətəndaşları tərəfindən yerli özünüidarəetmənin həyata keçirilməsi hüququ**

1. Gürcüstan vətəndaşları yerli özünüidarəetməni Gürcüstan Konstitusiyasına, "Yerli özünüidarəetmə haqqında Avropa Xartiyasına", Gürcüstanın beynəlxalq müqavilələri və sazişlərə, bu qanunun və Gürcüstanın normativ aktlarına əsasən həyata keçirirlər.

2. İrqindən, dərisinin rəngindən, dilindən, cinsindən, dinindən, siyasi və başqa nəzərlərindən, milli, etnik və sosial mənsubiyyətindən, mülki

vəziyyətindən asılı olmayaraq Gürcüstan vətəndaşlarının bu qanunlarla və seçki qanunvericiliyi ilə təyin edilmiş qayda ilə yerli özünüidarəetmənin orqanlarını seçmək və seçilmək hüquqları var.

**Maddə 8. Munisipalitet simvolları**

1. Munisipalitetin öz gerbi və bayrağı vardır. Onun başqa simvolları da ola bilər…

**Maddə 23. Munisipalitet sakrebulosu**

1. Munisipalitetin heyəti orqanı kollegial inzibati orqan – munisipalietin sakrebulosudur.
2. Munisipalitetin sakrebulosu 4 il müddətinə, munisipalitet ərazisində qeydiyyata alınmış Gürcüstan vətəndaşları tərəfindən, birbaşa seçkilərlə, ümumi bərabər seçki hüququnun əsasında gizli səsvermə ilə seçilir.

3. Munisipalitet sakrebulosunun üzvlərinin sayı və seçki qaydası "Gürcüstanın seçki məcəlləsi" "Gürcüstanın orqan qanunu" ilə müəyyənləşdirilir.

Əlavə
3 (2)

## Ümumi Təhsil haqqında Gürcüstan Qanunu (Çıxarış)

### Fəsil VII

Ümumtəhsil müəssisəsinin qəyyumlar şurası

**Maddə 37. Qəyyumlar Şurası**

1. Qəyyumlar şurası valideynlər və pedaqoji şura tərəfindən eyni sayda, 3 il müddəti ilə seçilən ən azı 6 və ən çoxu 12 nümayəndədən, orta pillə şagirdlərinin özünüidarəetməsi tərəfindən seçilən 1 nümayəndədən və Gürcüstan Təhsil və Elm Nazirliyi tərəfindən təyin edilən 1 üzvdən, Hərbi Hazırlıq və Təlimi həyata keçirən ümumtəhsil müəssisəsində isə həmçinin Gürcüstan Müdafiə Nazirliyi tərəfindən təyin edilən 1 üzvdən ibarətdir. Yerli özünüidarəetmə orqanı qəyyumlar şurasına 1 üzv təyin etmək səlahiyyətindədir. Qəyyumlar şurası tərəfindən məktəb üçün xeyriyyəçilik edən şəxslər arasından (əgər belə bir şəxslər varsa) seçilmiş 1 şəxs Qəyyumlar şurasının tərkibinə daxil edilə bilər. Qəyyumlar şurasının üzvlərinin sayını təyin etdikdə kiçik kontingentli məktəblər üçün Gürcüstan Təhsil və Elm Nazirliyinin razılığı ilə istisnalar edilir. Valideynlər arasında seçilən üzvlər məktəbdə olan hər bir pillədən bərabər sayda təqdim olunmalıdırlar. Qəyyumlar şurasının üzvü dalbadal yalnız iki dəfə seçilə bilər. (16.07.2010. N3442)
2. Qəyyumlar şurasının valideynlərdən və pedaqoji şuradan seçilən üzvlərinin sayı məktəbin nizamnaməsi ilə müəyyənləşdirilir.
3. Gürcüstan Təhsil və Elm Nazirliyinin qəyyumlar şurasına yığıncağın səs hüququ ilə faydalanan nümayəndəsini göndərmək hüququ var.
4. GürcüstanTəhsil və Elm Nazirliyinin və yerli özünüidarəetmə orqanının istənilən vaxt qəyyumlar şurasından nümayəndəsini geri çağırmaq hüququ vardır.
5. Şura toplantılarını çağıran və aparan sədr qəyyumlar şurasına rəhbərlik edir. O, direktorla münasibətdə məktəbi təqdim edir. Şuranın sədri şura tərkibindəki valideynlərdən və pedaqoji şuradan seçilən üzvdən və yerli özünüidarəetmənin icraçı orqanın nümayəndəsindən səlahiyyət müddətini keçməyərək növbə ilə seçilir. Qəyyumlar Şurasının üzvü olan şagirdlərin özünüidarəetməsinin nümayəndəsi qəyyumlar şurasına sədr seçilə bilməz. (19.03.2008. N5951)

51. Qəyyumlar Şurasının siyahı tərkibinin ən azı üçdə birinin və ya bu qanunun 26-cı maddəsinin birinci bəndinin “ç” yarımmadəsi ilə qəyyumlar şurasında nəzərdə tutulan, Gürcüstan Təhsil və Elm Nazirliyi tərəfindən təyin edilən nümayəndə qəyyumlar şurasının növbədənkənar iclasını çağırmaq səlahiyyətindədir.Qəyyumlar şurasının növbədənkənar iclasında sədrin olmadığı halda, qəyyumlar şurasının siyahı tərkibinin əksəriyyəti iləbu növbədənkənar iclasda qəyyumlar şurasının sədrinin səlahiyyətlərini həyata keçirən iclasın sədrini seçməyə hüququ var. (11.07.2009. N1385)

6. Səslərin bərabər bölündüyü halda qəyyumlar şurasının sədrinin səsi həlledicidir.
7. Qəyyumlar şurası dərs ili ərzində ən azı 3 dəfə, hər rübün əvvəlində toplanır.

**Maddə 38. Qəyyumlar Şurasının funksiyaları**

1. Qəyyumlar Şurası:
a) Bu qanunun 42-ci maddəsi ilə nəzərdə tutulan qayda ilə, siyahı tərkibinin çoxluğu ilə Gürcüstan Təhsil və Elm Nazirliyi tərəfindən qeydiyyatdan keçirdiyi məktəbin direktorunu seçir. Bu qayda Hərbi hazırlıq və təlimi həyata keçirən ümumtəhsil müəssisələrinə şamil edilmir;(4.05.2010 N 3068)
b) məktəb direktorunun təqdimatı ilə məktəbin büdcəsini təsdiqləyir, eləcə də, direktor tərəfindən hazırlanmış illik hesabatı təsdiqləyir və onun açıqlığını təmin edir. Hərbi hazırlıq və təlimi həyata keçirən ümumtəhsil müəssisələrinin büdcəsini Gürcüstan Müdafiə Nazirliyi təsdiq edir, büdcə layihəsini bu müəssisənin direktoru və qəyyumlar şurası işləyib hazırlayır;(4.05.2010 N 3068)
c) məktəb direktorunun təqdimatı ilə intizam xətalarının siyahısını və onlar üçün nəzərdə tutulan intizam cəzalarını, məktəbdən çıxarılma şərtlərini müəyyənləşdirən məktəbin daxili nizamnaməsini təsdiq edir;
ç) Pedaqoji şura tərəfindən işlənib hazırlanan məktəbin dərs planının, dərs materialının, o cümlədən qrif verilmiş, müəllimlər tərəfindən seçilmiş, dərs ili ərzində istifadə olunan dərsliklərin nüsxəsi haqqında razılığını bildirir; 25.11.2011 N5349
d) məktəb direksiyası tərəfindən maliyyələrin xərclənməsinə və əmlakın sərəncamına nəzarət edir;
e) əmək müqavilələri və Gürcüstan Qanunvericiliyi ilə nəzərdə tutulan tələblərin pozulduğu halda məktəbin direktoru ilə müqaviləni dayandırmaq səlahiyyətindədir;
ə) Qəyyumlar şurasında valideynlərin və pedaqoji şuranın nümayəndələrinin seçki bületenlərini və protokolları saxlayır və qeydiyyata alır;
f) Məktəbin daxili nizamnaməsi ilə nəzərdə tutulan qaydaya əsasən şikayətlərə baxır və müvafiq ölçülər götürür;
g) Milli tədris planına uyğun olaraq, dərs ilinin yekun imtahanlarının keçirilməsi məqsədilə məktəbin direktoruna İctimai Hüquqlu hüquqi şəxs - Qiymətləndirmə və İmtahanların Milli mərkəzinə müraciət etməyi və müvafiq müqavilənin bağlanılmasını tapşırmaq səlahiyyətindədir (06.08.2013.N 918)
h) Məktəbin direktorundan müqavilənin şərtlərini pozduğu, tərbiyəvi işlər üçün uyğun olmayan işlər gördüyü və qanunvericiliklə nəzərdə tutulan digər hallarda müəllimin əmək müqaviləsinə xitam verilməsini tələb etmək səlahiyyətindədir;
i) intizam xətalarının təhlili məqsədilə məktəbin nizamnaməsi ilə nəzərdə tutulan qayda əsasında intizam komitəsini seçir, komitənin tərkibinə eyni sayda müəllim, valideyn və orta pillənin şagirdi daxil olur. Qəyyumlar şurası nizamnamə ilə nəzərdə tutulan qayda ilə intizam komitəsinin qərarları haqqında şikayətlərə baxmaq və ya apelyasiya komitəsini yaratmaq səlahiyyətindədir. Apelyasiya komitəsi, qəyyumlar şurası direktor tərəfindən intizam xətaları üzrə qəbul edilən qərarlara aid olan şikayətləri də nəzərdən keçirir. Konkret halın araşdırılması məqsədilə intizam komitəsinin

və ya apelyasiya komitəsinin xüsusi tərkibini dəvət etməyə yol verilmir;

ı) məktəb direktoru tərəfindən təqdim edilən məktəbin nizamnamə layihəsini razılaşdırır.

2. Bu maddənin birinci bəndinin "a", "b", "c", "ç", "h" və "ı" yarımmadələri ilə nəzərdə tutulan qərarları qəyyumlar şurası siyahı tərkibinin əksəriyyəti ilə qəbul edir, "e" yarımmadəsi ilə nəzərdə tutulan qərarı isə - siyahı tərkibinin üçdə ikisi ilə.

3. Bu maddənin birinci bəndinin "a", "b" (illik hesabatla əlaqədar funksiyalardan və "b" yarımmadəsinin ikinci cümləsindən başqa) və "e" yarımmadələrinin təsiri hərbi hazırlıq və təhsili həyata keçirən ümumtəhsil müəssisələrinə şamil edilmir. (4.05.2010N3068)

## Fəsil X

### Maddə 47. Ümumtəhsil müəssisələrində şagirdlərin özünüidarəetməsi

1. Şagirdlərin özünüidarəetməsi bu qanuna və məktəbin nizamnaməsinə əsasən seçilmiş bir orqandır. O, məktəbin struktur vahidini təqdim edir.

2. Baza və orta pillələrin şagirdləri özlərinin idarəetmələrini seçirlər.

3. Şagirdlərin özünüidarəetmə seçkiləri bərabərlik əsasında gizli səsvermə, şəffaflıq və siniflərə əsasən şagirdlərin bərabər təqdimatı prinsiplərinə riayət etməklə keçirilir.

4. Şagirdlərin özünüidarəetməsinə özünüidarəetmə tərəfindən seçilən sədr rəhbərlik edir.

### Maddə 48. Şagirdlərin özünüidarəetməsinin funksiyaları

Şagirdlərin özünüidarəetməsi:

a) məktəbin daxili nizamnaməsi barədə tövsiyələr hazırlayır;

b) Qəyyumlar şurasına məktəb üçün əhəmiyyətli bütün məsələlərlə əlaqədar təkliflər təqdim etmək səlahiyyətindədir;

c) Qəyyumlar şurasına öz nümayəndəsini seçir;

ç) məktəbin nizamnaməsi ilə təyin edilən qaydaya və Gürcüstan Qanunvericiliyinə uyğun olaraq əldə edilən qrantın sərəncam olunmasında iştirak edir;

d) üzvlərin beşdə birinin təşəbbüsü ilə məktəb klublarını yaradır.

Əlavə 4 (3)

**İctimai məktəbin nizamnaməsi**
**(Çıxarış)**

**Maddə 4. Qəyyumlar Şurası**

1. Qəyyumlar şurası valideynlər və pedaqoji şura tərəfindən eyni sayda, 3 il müddəti ilə seçilən ən azı 6 və ən çoxu 12 nümayəndədən, orta pillə şagirdlərinin özünüidarəetməsi tərəfindən seçilən 1 nümayəndədən və Gürcüstan Təhsil və Elm Nazirliyi tərəfindən təyin edilən 1 üzvdən ibarətdir. Yerli özünüidarəetmə orqanı qəyyumlar şurasına 1 üzv təyin etmək səlahiyyətindədir. Qəyyumlar şurası tərəfindən məktəb üçün xeyriyyəçilik edən şəxslər arasından (əgər belə bir şəxslər varsa) seçilmiş 1 şəxs Qəyyumlar şurasının tərkibinə daxil edilə bilər. Qəyyumlar şurasının üzvlərinin sayını təyin etdikdə kiçik kontingentli məktəblər üçün nazirliyin razılığı ilə istisnalar edilir. Valideynlər arasında seçilən üzvlər məktəbdə olan hər bir pillədən bərabər sayda təqdim olunmalıdırlar. Qəyyumlar şurasının üzvü dalbadal yalnız iki dəfə seçilə bilər.
2. Nazirliyin qəyyumlar şurasına müşavirlik səs hüququ ilə faydalanan nümayəndəsini göndərmək hüququ var.
3. Gürcüstan Təhsil və Elm Nazirliyinin və yerli özünüidarəetmə orqanının istənilən vaxt qəyyumlar şurasından nümayəndəsini geri çağırmaq hüququ vardır.
4. Şura toplantılarını çağıran və aparan sədr Qəyyumlar şurasına rəhbərlik edir. O, direktorla münasibətdə məktəbi təqdim edir. Şuranın sədri şura tərkibindəki valideynlərdən və pedaqoji şuradan seçilən üzvdən və yerli özünüidarəetmənin icraçı orqanın nümayəndəsindən səlahiyyət müddətini keçməyərək növbə ilə seçilir. Qəyyumlar Şurasının üzvü olan şagirdlərin özünüidarəetməsinin nümayəndəsi qəyyumlar şurasına sədr seçilə bilməz.
5. Qəyyumlar Şurasının siyahı tərkibinin ən azı üçdə birinin və ya bu qanunun 26-cı maddəsinin birinci bəndinin “ç” yarımmadəsi ilə qəyyumlar şurasında nəzərdə tutulan, Gürcüstan Təhsil və Elm Nazirliyi tərəfindən təyin edilən nümayəndə qəyyumlar şurasının növbədənkənar iclasını çağırmaq səlahiyyətindədir. Qəyyumlar şurasının növbədənkənar iclasında sədrin olmadığı halda, qəyyumlar şurasının siyahı tərkibinin əksəriyyəti ilə bu növbədənkənar iclasda qəyyumlar şurasının sədrinin səlahiyyətlərini həyata keçirən iclasın sədrini seçməyə hüququ var.
6. Səslərin bərabər bölündüyü halda qəyyumlar şurasının sədrinin səsi həlledicidir.
7. Qəyyumlar şurası dərs ili ərzində ən azı 3 dəfə, hər rübün əvvəlində toplanır.

**Maddə 5. Qəyyumlar Şurasının funksiyaları**

1. Qəyyumlar Şurası:
a) “Ümumi təhsil haqqında” Gürcüstan qanununun 42-ci maddəsi ilə nəzərdə tutulan qayda ilə, siyahı tərkibinin çoxluğu ilə İctimai Hüquqlu hüquqi şəxs Təhsilin idarəetməsi informasiya sistemi tərəfindən qeydiyyatdan keçirilən məktəbin direktorunu seçir.
b) məktəb direktorunun təqdimatı ilə məktəbin büdcəsini təsdiqləyir, eləcə də direktor tərəfindən hazırlanmış illik hesabatı təsdiqləyir və onun açıqlığını təmin edir.
c) məktəb direktorunun təqdimatı ilə intizam xətalarının siyahısını və onlar üçün nəzərdə tutulan intizam cəzalarını, məktəbdən çıxarılma şərtlərini müəyyənləşdirən məktəbin daxili nizamnaməsini təsdiq edir;
ç) Pedaqoji şura tərəfindən hazırlanan

məktəbin tədris planları, dərs materialını və Gürcüstan Təhsil və Elm Nazirliyi tərəfindən qrif verilən dərsliklər arasında müəllimlərin seçdikləri və dərs ili ərzində istifadə olunan dərsliklərin siyahısı barədə razılığını bildirir;
d) məktəb müdiriyyəti tərəfindən maliyyələrin xərclənməsinə və əmlakın sərəncamına nəzarət edir;
e) əmək müqavilələri və Gürcüstan qanunvericiliyi ilə nəzərdə tutulan tələblərin pozulduğu halda məktəbin direktoru ilə müqaviləni dayandırmaq səlahiyyətindədir;
ə) Qəyyumlar şurasında valideynlərin və pedaqoji şuranın nümayəndələrinin seçki bületenlərini və protokolları saxlayır və qeydiyyata alır;
f) şikayətlərə baxır və müvafiq ölçülər götürür;
g) Milli Tədris planına uyğun olaraq dərs ilini yekunlaşdıran imtahanların keçirilməsi məqsədilə direktora tapşırmaq, İmtahanların Milli Mərkəzinə müraciət etmək və müvafiq müqavilə bağlamaq səlahiyyətindədir;
h) Məktəbin direktorundan müqavilənin şərtlərini pozduğu, tərbiyəvi işlər üçün uyğun olmayan işlər gördüyü və qanunvericiliklə nəzərdə tutulan digər hallarda müəllimin əmək müqaviləsinə xitam verilməsini tələb etmək səlahiyyətindədir;
i) intizam xətalarının təhlili məqsədilə məktəbin nizamnaməsi ilə nəzərdə tutulan qayda əsasında intizam komitəsini seçir, komitənin tərkibinə eyni sayda müəllim, valideyn və orta pillənin şagirdi daxil olur. Qəyyumlar şurası nizamnamə ilə nəzərdə tutulan qayda ilə intizam komitəsinin qərarları haqqında şikayətlərə baxmaq və ya apelyasiya komitəsini yaratmaq səlahiyyətindədir. Apelyasiya komitəsi, qəyyumlar şurası direktor tərəfindən intizam xətaları üzrə qəbul edilən qərarlara aid olan şikayətləri də nəzərdən keçirir. Konkret halın araşdırılması məqsədilə intizam komitəsinin və ya apelyasiya komitəsinin xüsusi tərkibini dəvət etməyə yol verilmir;
ı) məktəb direktoru tərəfindən təqdim edilən məktəbin nizamnamə layihəsini razılaşdırır.
2. Bu maddənin birinci bəndinin “a”, “b”, “c”, “ç”, “h” və “ı” yarımmadələri ilə nəzərdə tutulan qərarları qəyyumlar şurası siyahı tərkibinin əksəriyyəti ilə qəbul edir, “e” yarımmadəsi ilə nəzərdə tutulan qərarı isə - siyahı tərkibinin üçdə ikisi ilə.

**Maddə 10. Şagirdlərin özünüidarəetməsi**

1. Şagirdlərin özünüidarəetməsi seçilmiş bir orqandır. O, məktəbin struktur vahidini təqdim edir.
2. Baza və orta pillələrin şagirdləri özlərinin idarəetmələrini seçirlər.
3. Şagirdlərin özünüidarəetmə seçkiləri bərabərlik əsasında gizli səsvermə, şəffaflıq və siniflərə əsasən şagirdlərin bərabər təqdimatı prinsiplərinə riayət etməklə keçirilir:
a) baza və orta pillənin şagirdlərinin özünüidarəetmə seçkiləri dərs ilinin əvvəlindən ən geci bir ay ərzində keçilir;
b) şagirdlərin özünüidarəetmələrinin seçkilərinin keçirilməsi tarixini qəyyumlar şurasının sədri təyin edir;
c) müvafiq dərs ili müddətinə hər bir sinif şagirdləri baza və orta pillələrinin şagirdlərinin özünüidarəetmələrinə bir üzv seçirlər;
ç) baza və orta pillənin hər bir şagirdinin baza və orta pillənin şagirdlərinin özünüidarəetmələrinin seçkilərində iştirak etmək hüququ var;
d) baza və ya orta pillənin şagirdlərinin özünüidarəetmələrinə seçmək üçün baza və orta pillənin hər bir sinfinin şagirdi bir namizədə səs verir. Müvafiq sinifdə daha

çox səs toplayan şagird qələbə qazanır.
e) baza və ya orta pillənin hər birində siniflərin sayı üçdən çox olmayan məktəblərdə hər bir sinfin şagirdi müvafiq pillənin özünüidarəetməsinə seçilmək üçün 3 namizədə səs verir. Bu halda sinifdə səslərin çoxluğu ilə faydalanan 3 namizəd qələbə qazanır.
ə) baza və orta pillənin özünüidarəetmələrinə seçilmək istəyən şagirdlər seçkilərin başlanmasına ən azı 3 gün əvvəl müvafiq sinif rəhbəri yanında qeydiyyatdan keçirlər, sinif rəhbəri olmadığı halda isə məktəbin direktoru yanında.
g) Namizədlər tərəfindən şagirdlərin özünüidarəetmələrinin üzvlüyünə seçkiqabağı təşviqat və kampaniyanın aparılmasına ictimai məktəbin qəyyumlar şurasına üzvlüyə namizədlər tərəfindən seçkiqabağı təşviqat və kampaniyanın aparılması üçün təyin edilən qayda şamil edilir.
4. Özünüidarəetmə üzvləri seçkilərin nəticələrinin dərcindən 7 gün ərzində öz tərkiblərindən siyahı tərkibinin əksəriyyəti ilə özünüidarəetmə sədrini seçirlər,
orta pillənin özünüidarəetmə üzvləri də həmin qayda ilə qəyyumlar şurasına orta pillənin şagirdlərinin özünüidarəetmə nümayəndəsini seçirlər.
6. Şagirdlərin özünüidarəetməsi:
a) məktəbin daxili nizamnaməsi barədə tövsiyələr hazırlayır;
b) qəyyumlar şurasına məktəb üçün bütün əhəmiyyətli məsələlərlə əlaqədar təkliflər təqdim etmək səlahiyyətindədir, o cümlədən qazanılan qrantın sərəncamı ilə əlaqədar;
c) Üzvlərin beşdə birinin təşəbbüsü ilə məktəb klublarını yaradır;
ç) Orta pillədə öz nümayəndəsini intizam komitəsinə seçir.
7. Baza və orta pillələrin şagirdlərinin özünüidarəetmə üzvünün səlahiyyətləri bu məktəbdə təhsilini dayandırdıqda/ bitirdikdə vaxtından əvvəl dayandırılır.

Əlavə 5 (4)

**"Gənc avropalılar" klubunun nizamnaməsi (2)**

**1-ci hissə**
**Klubun fəaliyyətinin məqsədləri**

§1
"Gənc avropalılar" klubunun fəaliyyətinin məqsədləridir:
a) Avropa, Avropa İttifaqı və Avropaya inteqrasiya haqqında biliyin dərinləşdirilməsi
b) Şagirdlərin ictimai həyata cəlb olunması

§2
Klub öz məqsədlərini məktəbdə və onun kənarlarında həyata keçirir.

§3
Klub öz məqsədlərini (bu barədə birinci paraqrafda söylənilmişdir) növbəti metodlarla həyata keçirir:
a) elmi, ictimai və mədəni tədbirlərin təşkili: görüşlər, məşğələlər, seminarlar, təqdimatlar, gecələr.
b) Avropanın, Avropa İttifaqının və Avropaya inteqrasiya haqqında materialların müstəqil şəkildə axtarışı.
c) Avropaya inteqrasiya prosesi və onda Gürcüstanın yeri haqqında diskussiyalar.

**2-ci hissə**
**Kluba üzvlük**

§ 4
Məktəbin hər bir şagirdi kluba üzv ola bilər.

§ 5
Klubun rəhbərliyi maraqlanan şəxsin ərizəsinin əsasında klubun üzvü statusunu verir.

§ 6
Əgər klubun qamqeobasının (şurasının) verilən namizədin uyğun olmasına hər hansı bir şübhələri vardırsa, o zaman rəhbərlik qəbul etmə məsələsini ümumi toplantıda müzakirəyə verir.

§ 7
Əgər əsaslı səbəb vardırsa və buna görə də verilən şəxsin üzvlüyü klub üçün destruktiv ola bilərsə, o zaman qamqeobanın müraciəti əsasında ümumi toplantı namizədin qəbulundan imtina edə bilər.

**3-cü hissə**
**Üzvlərin hüquqları və vəzifələri**

§ 8
Klubun hər birinin hüquqlarıdır:
a) ümumi toplantıda iştirak etmək.
b) klubun rəhbərliyinin seçkilərində aktiv və passiv seçki hüququ.
c) klubun fəaliyyəti haqqında şəxsi təkliflərini təqdim etmək, bu mövzu barədə diskussiyalarda aktiv iştirak etmək.
Klubun hər bir üzvünün vəzifəsinə aiddir:
a) nizamnaməyə riayət etmək;
b) klubun təşəbbüslərində fəal iştirak etmək, onların həyata keçirilməsinə yardım etmək, klubun rəhbərliyi və digər üzvlərlə razılaşdırılmış işlər;
c) klubun qamqeobasının (şurasının) qərarlarına tabe olmaq.

**4-cü hissə**
**Klubun rəhbərliyi**

§ 9
Klubun rəhbərliyini təşkil edirlər:
a) ümumi toplantı
b) klubun qamqeobası (şurası)

§ 10
Ümumi toplantıya klubun hər bir üzvü daxildir.

§ 11
Ümumi toplantı klubun ali rəhbər orqanıdır və klubun fəaliyyətinə aid olan hər hansı bir qərarı qəbul etmək səlahiyyətindədir.

§ 12
Ümumi toplantı ayda ən azı bir dəfə klubun qamqeobası tərəfindən və ya klub üzvlərinin ən azı dörddə birinin istəyi olduğu halda çağırılmalıdır.

§ 13
Ümumi toplantı, əgər onda klubun üzvlərinin minimum üçdə biri iştirak edirsə qərar qəbul etmək səlahiyyətindədir.

§ 14
Ümumi toplantı səslərin çoxluğu ilə qərar qəbul edir (yəni razılaşanların səsi əksinə olanların və bitərəflərin səslərinin cəmindən çox olmalıdır).

§ 15
Klubun üçnəfərlik qamqeobası ümumi toplantı tərəfindən dərs ilinin əvvəlindən ən geci bir ay yarım müddətdə bir il müddətinə seçilir:
a) ötən dərs ilində seçilən qamqeoba ümumi toplantını dərs ilinin əvvəlindən ən azı 3 həftə ərzində çağırır.
b) Ümumi toplantı öz sıralarından üçnəfərlik seçki komissiyasını seçir.
c) Seçki komissiyasına qamqeobanın hazırkı üzvləri və gələcək qamqeobalığa üzv namizədlər daxil ola bilməzlər.
ç) Seçki komissiyası seçki prosedurunu tərtib edir, sonra onu ümumi toplantı bəyənir.
d) Seçki komissiyasına qamqeobalığa namizəd olaraq qeydiyyatdan keçmək istəyən klubun üzvləri müraciət edirlər və komissiya onları qeydiyyatdan keçirir.
e) Ümumi toplantı qamqeobanı gizli səsvermə ilə seçir.
ə) Ümumi toplantının hər bir üzvü maksimum üç namizədə səs verə bilər.
f) Daha çox səs toplamış və eyni zamanda ümumi toplantı üzvlərinin tam sayının minimum dörddə birinin dəstəyini qazanan 3 nəfər qamqeobanın üzvü olur.
g) Əgər seçkilər qamqeobanın hər üç üzvünü seçə bilməsələr, bu halda əlavə seçkilər keçirilir.

§ 16
Klubun qamqeobası:
a) klubun fəaliyyətinə rəhbərlik edir.
b) Klubun kənarında onu təmsil edir.
c) Üzvləri arasında qamqeobanın işlərinə rəhbərlik edən sədri seçir.
ç) Qamqeobanın minimum iki üzvünün yerində olduğu halda, səslərin tam çoxluğu ilə qərarlar qəbul edir.

§ 17
Ümumi toplantı kadensiyanın bitməsinə qədər klubun qamqeobasını və ya onun ayrı-ayrı üzvlərini səslərin minimum üçdə ikisi ilə buraxa bilər. Bu halda yeni seçkilər keçirilə bilər.

**5-ci hissə**
**Klubun qəyyumu**

§ 18
Klubun qəyyumu klubun fəaliyyətində onun tərəfini saxlayır və yardım edir. O, bir tərəfdən, klub və digər tərəfdən isə məktəbin direksiyası və pedaqoji kollektiv arasında vasitəçi rolunu yerinə yetirir.

§ 19
Klubun qəyyumu məşvərətlər əsasında seçilir. Bu məşvərətləri klub, direksiya və pedaqoji kollektiv öz aralarında aparırlar.

**6-cı hissə**
**Yekun qərarlar**

§ 20
Klub üzvlərinin üçdə ikisinin qəyyumla və məktəbin direksiyası ilə məsləhətlərindən sonra xeyrinə  səs verdiklərində verilən nizamnamə qüvvəyə minir.

§ 21
Ümumi toplantı səslərin üçdə ikisi ilə nizamnamədə qəyyumla və məktəbin direksiyası ilə məsləhətləşmədən sonra dəyişikliklər edə bilər.

# Mövzu 3



# İctimai işlər. İctimai mənfəət. Problemlər və onların həlli alqoritmi



# Mövzu 3

# İctimai işlər. İctimai mənfəət. Problemlər və onların həlli alqoritmi

Gənclər bir çox hallarda cəmiyyətdə bir çox problemləri görürlər və onları həll etmək istəkləri də olur, amma təsəvvür edə bilmirlər ki, bu problemlərin həllində şəxsən iştirak edə bilərlər. İştirak etmələrini bilsələr də necə hərəkət edəcəklərini bilmirlər. Bu mövzu üzərində işlədikdə şagirdlər problemin həllinin ümumi alqoritmi ilə tanış olacaqlar. Başqa sözlə desək, problemin həlli üçün lazım olan əməllərin dəqiq ardıcıllığını mənimsəyəcəklər. Bundan əlavə addım-addım konkret ictimai problemin həlli üçün layihəni həyata keçirməyə başlaycaqlar.

**Dərsin məqsədi:**

- şagirdlər tərəfindən ictimai işlərin əhəmiyyətinin dərk edilməsi;
- ictimai mənfəətin mahiyyətinin ayırd edilməsi;
- praktiki iş üçün problemlərin seçimi; lazımi ardıcıl işlərin əhəmiyyətinin mənimsənilməsi.

## Birinci dərs

Ev tapşırığını (2.1) nəzərdən keçirdikdə həlli bütövlükdə və ya qismən şagirdlərin iştirakı ilə mümkün ola bilən bütün problemlər qeyd edilir. Bu tapşırığı yerinə yetirməklə şagirdlər real olaraq nəyi edə biləcəkləri barədə düşünürlər. Şəxslər və ya təşkilatlar müəyyənləşdirilir, hansılarla əməkdaşlıq iş üçün faydalı olacaqdır. Ev tapşırığının məzmunu və aşağıda verilən suallar müəllimə "ictimai iş" haqqında söhbəti aparmağa imkan verir.

– "İctimai işi" necə başa düşürsünüz?

– Tərəfinizdən təqdim edilən problemlərdən hansı üzərində iş "ictimai iş" adlana bilər?

– "İctimai mənfəəti" necə başa düşürsünüz? (ictimai mənfəət dedikdə müsbət, xoş təsir və cəmiyyət üçün yaxşı nəticə nəzərdə tutulur).

– Sizin fikrinizcə, Albert Şvaytserin və Kreq Kyelburqerin işləri hansı ictimai mənfəəti gətirdi?

Bundan sonra müəllim sinifdə yerinə yetirmək üçün şagirdlərə Tapşırıq 3.1-i verir və bununla da “İctimai mənfəət” mövzusunun təhlili yekinlaşdırılır.

## Tapşırıq 3.1

**(Fərdi iş üçün)**

Albert Şvayserin və Kreq Kyelburqerin fəaliyyəti nəticəsində hadisələrin necə inkişaf etdiyini yadınıza salın. Aşağıda verilən sxemi çəkin və hər iki hal üçün boş qrafaları doldurun.

| Fərdin təşəbbüsü | Fərdlərin və təşkilatların əməkdaşlığı | İctimai mənfəət üçün iş | İctimai mənfəət |
|---|---|---|---|
| | | | |
| | | | |

Yerinə yetirilən tapşırıq yəqin ki, belə görünəcəkdir:

| Fərdin təşəbbüsü | Fərdlərin və təşkilatların əməkdaşlığı | İctimai mənfəət üçün iş | İctimai mənfəət |
|---|---|---|---|
| Şvaytserin qərarı və tibbi təhsil | Fransanın Qırmızı Xaç Missiyası ilə əməkdaşlıq | Xəstələrin müalicəsi və xəstəxanalar üçün fondların axtarışı | Minlərlə xilas edilmiş və şəfa tapmış insan |
| Kreqin qərarı | Qrup toplamaq və təşkilatla əlaqə | Təhsil vermək və yaşayış şərtlərinin yaxşılaşdırılması | Dözülməz həyatdan xilas olan uşaqlar. Ədalətli cəmiyyətə tərəf meyl. |

**Lüğət**

*Alqoritm - ciddi qaydalarla aparılan və onların ardıcıllıqla yerinə yetirilməsindən sonra məsələnin həllinə gətirib çıxaran əməllər birliyi.*
*Aspekt –( lat. Aspectus – nəzər, növ)*
*1) nöqteyi-nəzər, ondan irəli gələrək mövzu, hadisə, məfhum təhlil edilir;*
*2) verilən hadisənin tərəflərindən biri və ya əlaqə.*
*İndikator – lat. indicator) – göstərici.*

Tapşırıq 3.1-i yerinə yetirdikdən sonra təbii ki, bu və ya digər problemin necə həll olunacağı barədə sual səslənir.

Problemin həlli alqoritminin üzərində işə başlamaq üçün müəllim şagirdlərə Tapşırıq 3.2-nin şəklində əqli həmləni təklif edir. Tapşırığın "a" bəndi əqli həmlənin birinci mərhələsini təqdim edir. Müəllim lövhəyə sual yazır: problemi həll etmək üçün hansı pillələr keçilməlidir (ümumilikdə)? Şagirdlərdən alınan bütün cavablar şərh və qiymətləndirmə xaricində qəbul edilir və qısaca lövhəyə yazılır. "B" bəndi əqli həmlənin ikinci mərhələsidir – fərdi iş üçün tapşırıq. Bu da şagirdləri problemin həlli üçün lazımi əməllərin ardıcıllığı üzərində düşündürür. Bu, öz tərəfindən, şagirdləri layihəni həyata keçirdikdə öz-özünə hərəkət etməkdən qoruyur.

Bəzi pillələr şagirdlər üçün anlaşılmaz yaxud da həddən artıq görünə bilər. Müəllim (lazımi hesab etdikdə) bu və ya digər pillənin zərurətini oradaca izah edə və ya sonra iş zamanı göstərə bilər. "C" bəndi müqayisə olunmuş variantın işlənib hazırlanmasını nəzərdə tutur (əqli həmlənin üçüncü mərhələsi).

**Tapşırıq 3.2**

a) suala cavab verin: – ümumiyyətlə, problemin həlli üçün hansı pillələri keçmək lazımdır? (müəllim fikirlərinizi lövhəyə yazır).
b) Aşağıda problemin həlli üçün keçiləsi mərhələlərin siyahısını təklif edirik. Bu siyahıdan və lövhədə yazılan cavablarınızdan istifadə etməklə ictimai problemin həllinin ümumi alqoritmini tərtib edin (pillələri düzgün ardıcıllıqla yazın). Əgər hər hansı bir pillə artıq görünərsə, o zaman onu yazmayın.

- Problemin öyrənilməsi. Problem haqqında məlumatların toplanılması;
- Problemin **aspektlərə** ayrılması;
- Problemin aspektinin seçilməsi;
- İş planının tərtib olunması;
- Layihənin yerinə yetirilmə **indikatorlarının** müəyyənləşdirilməsi;
- Həll olunası məsələlərin təqdimatının hazırlığı;
- Problemin göstərilməsi;
- Qrupun formalaşması;
- İşlərin aparılması;
- Qiymətlədirmə.

c) Fərdi işlərin ümumi təhlilindən sonra alqoritmin müqayisə olunmuş variantını işləyib hazırlayın.

Problemin həllinin ümumi alqoritmi:

1. Problemin görünməsi
2. Qrupun toplanılması
3. Problemin öyrənilməsi. Problem haqqında informasiyanın toplanılması (mənbə - ailə, dostlar, kitabxana, jurnal-qəzetlər, müəllimlər, televiziya, internet, bu problem üzərində çalışan təşkilatlar)
4. Problemlərin aspektlərə bölünməsi (konkret mövzu aspektlərə bölünməyə də bilər)
5. Problemin aspektinin seçilməsi – məqsədin formalaşdırılması
6. İş planının tərtibatı
7. Layihənin yerinə yetirilmə indikatorlarının müəyyənləşdirilməsi
8. Həll olunan məsələlərin təqdimatının hazırlanması
9. Problemin tərəfdaşlarla təqdimatı və əməkdaşlığın başlanılması
10. İşlərin aparılması
11. Qiymətləndirmə

Yerinə yetirilən ev tapşırığından irəli gələrək (2.1) sinif maksimum 3-4 problemi seçir və hər bir qrup onların üzərində işləyir.

Müəllim şagirdlərin seçdiyi problemi yaxşı anlamalıdır (çünki ilkin mərhələdə şagirdlərin öz ideyaları haqqında təsəvvürləri qarışıq ola bilər).

Müəllim yerli və ya milli hallarla əlaqələnən layihələr üzərində düşünməli; şagirdlərin seçdikləri layihələrin məktəbin, rayonun səviyyəsində nə dərəcədə həyata keçiriləcəyini nəzərə almalı; fənn standartlarından istifadə etməlidir, çünki onlar bilik və eləcə də, vərdiş-bacarıqlar cəhətindən bu fənn üçün çox mühüm nəticələrdən ibarətdirlər; xeyriyyə işlərinə diqqət verməlidir. Layihənin həcmini müəyyənləşdirməlidir. Layihəyə əsaslanan tədrisin spesifikası müəllimdən nəinki informasiyanı ötürməyi, eləcə də, tədris prosesini təşkil etməyi və aparmağı tələb edir. Bu, kifayət qədər mürəkkəb və çoxtərəfli roldur və müəllimdən həm lider, həm də köməkçi bacarığının üzə çıxarılmasını tələb edir. Layihənin nə dərəcədə düzgün istiqamətdə inkişaf etməsi ondan asılıdır.

Nailiyyətin ön şərti isə yenə də müəllim və şagirdlər arasındakı əməkdaşlıqdadır. Əməkdaşlıq və hörmətə əsaslanan optimal tədris mühiti yaradılmalıdır. Evdə yerinə yetirmək üçün müəllim sinfə 3.3 Tapşırığını verir. Bu tapşırıqla şagirdlər layihəni praktiki

həyata keçirirlər. 71-ci səhifədə verilən cədvəldə hansı tapşırığın hansı konkret layihənin həyata keçirilməsinə xidmət etdiyi və alqoritmin hansı pilləsinə aid olduğu göstərilmişdir. Şagirdlər sinifdə seçilən 3-4 problemin arasından hansı problemin üzərində işləyəcəklərini qərara alırlar. Bu, çox əhəmiyyətlidir. Müəllim o şəraiti qeyd etməlidir ki, qrupda hər kəsin özünün funksiyası olacaq və fərqli bacarıqları olan şagirdlərin birləşməsi layihəyə xeyir gətirəcəkdir. Bundan əlavə, qızların və oğlanların sayı və qrupun etnik tərkibi tarazlaşdırılmalıdır. Hazırkı mərhələdə hamının layihədə iştirak etmək arzusunun olması vacib deyil. Şagird sonralar hər hansı bir qrupa birləşə və ya layihədə iştirak etmək istəyi onu başqa problem maraqlandırdığında baş qaldıra bilər.

**Tapşırıq 3.3**

Fikirləşin, hansı problemin üzərində işləmək istəyirsiniz. Layihəni həyata keçirməyi planlaşdırdığınız və razılaşdığınız sinif və məktəb yoldaşlarınızı seçin. Həmiştirakçıların seçim prinsiplərini nəzərə alın. Seçiminizi əsaslandırın.

**Dərsin məqsədi:**

Problemin həlli alqoritmi pillələrinin şagirdlər tərəfindən anlanılması.

# İkinci dərs

Tapşırığı (3.3) yoxlamaqla müəllim qrupun formalaşıb formalaşmadığını müəyyən edir. Tapşırıq 1.2-ni yerinə yetirməklə ümumi alqoritmin birinci bəndi “problem göstərilir”. Ev tapşırığı 3.3 isə “qrupun toplanılmasına” xidmət edir.

Müəllim şagirdlərə cütlərdə yerinə yetirmək üçün sinif tapşırığı 3.4-ü verir. Tapşırığın məqsədi alqoritmin hər bir pilləsini anlamaq və onu sinif yoldaşlarına tanış etməkdir. Müəllim şagird cütlüklərinə alqoritmin hər bir pilləsini və “qrupun toplantısının nə zaman və necə təşkil olunması? hansı suallar verilməlidir?” suallarını verir. Müəllim diqqəti ona yönəltməlidir ki, cütlərdən hər biri onun tərəfindən təqdim edilən pillənin sinif tərəfindən necə başa düşüləcəyində məsuliyyət daşıyır.

**Tapşırıq 3.4**

**(cütlərdə iş)**

Problemin həllinin ümumi alqoritmi ilə tanış olun və bu və ya digər pillənin yerinə yetirilməsinin nəyi bildirdiyini tapın (hər cütlük – bir pilləni).

Problemin həllinin ümumi alqoritmi:

1. Problemin görünməsi
2. Qrupun toplanılması
3. Problemin öyrənilməsi. Problem haqqında informasiyanın toplanılması (mənbə - ailə, dostlar, kitabxana, jurnal-qəzetlər, müəllimlər, televiziya, internet, bu problem üzərində çalışan təşkilatlar)
4. Problemlərin aspektlətə bölünməsi (konkret mövzu aspektlərə bölünməyə də bilər)
5. Problemin aspektinin seçilməsi – məqsədin formalaşdırılması
6. İş planının tərtibatı
7. Layihəninyerinəyetirilməindikatorlarınınmüəyyənləşdirilməsi
8. Həll olunan məsələlərin təqdimatının hazırlanması
9. Problemin tərəfdaşlarla təqdimatı və əməkdaşlığın başlanılması
10. İşlərin aparılması
11. Qiymətləndirmə

Dərsin qalan hissəsi şagirdlərin işlərinin təhlilinə və müəllim tərəfindən onların üzərində düzəlişlərin aparılmasına ayrılır. Şagirdlərin bir-birlərini dinləmələri, suallar vermələri və şagirdlərdən və ya müəllimdən cavab almaları vacibdir. “Layihənin yerinə yetirilmə indikatorlarının müəyyənləşdirilməsi” daxil olmaqla təhlil etmək də yaxşı olardı.Qalan məsələlərin təhlili növbəti dərsdə sona çatdırılır.

## Qrupun toplanması

Qrup üzvləri işin gedişi ilə əlaqədar toplantı zərurəti olduğunda toplaşırlar, amma birinci toplantı mütləq qrupun təşkil edildiyində baş verməlidir ki, problemin öyrənilməsində üzvlərin funksiyaları müəyyənləşdirilsin. İkinci görüş üzvlər tərəfindən problem haqqında informasiyanın əldə edilməsindən sonra baş tutmalıdır. Toplantı üçün mütləq müəyyən edilməlidir: vaxt, yer, gündəlik. Gündəlik aydın şəkildə təşkil edilmiş və vaxtda müəyyənləşdirilmiş məsələlərin siyahısıdır. İkinci toplantı zamanı üzvlər bir-birlərini problemin öyrənilməsi nəticələri ilə tanış etməli və alqoritmin növbəti bəndlərini yerinə yetirməlidirlər: problemin

aspektlərə bölünməsi, problemin aspektinin seçilməsi – məqsədin formalaşdırılması, iş planının tərtib olunması və layihənin yerinə yetirilməsi indikatorlarının müəyyənləşdirilməsi. Bundan əlavə növbəti görüşün tarixi bildirilməli, bütün qərarlar yazılmalıdır. Görüş zamanı vacibdir ki, hər bir üzvün fikri dinlənilsin, bir-birinə qarşı hörmətlə yanaşılsın, nəzərdən keçiriləsi məsələlər üzərində razılıqlar əldə edilsin.

## Problemin öyrənilməsi

Problemin öyrənilməsi problem haqqında informasiyanın toplanılmasını və onun sonrakı analizini nəzərdə tutur. İnformasiyanın mənbəyi ailə, dostlar, kitabxana, jurnal-qəzetlər, müəllimlər, televiziya, internet, bu problem üzərində çalışan təşkilatlar ola bilərlər. Hər şeyi yadda saxlamaq mümkün deyil. Qeydlər aparmaq və ya çap məlumatlarını toplamaq lazımdır. Heç nəyi unutmamaq və sonradan iş planının tərtib edilməsini asanlaşdırmaq üçün layihə üçün lazımi resursların qeydiyyat vərəqindən istifadə etmək lazımdır (Əlavə (6 (5)). Əlavələrdə verilən formalar nəinki işi asanlaşdırır, eləcə də, diqqəti nəyə cəlb etməyi xatırladır.

Araşdırmanı keçirmək üçün qrup və ya ayrı-ayrı üzvlər üçün tədqiqatın qısa planı (Əlavə (7(6)), araşdırma keçirildikdən sonra isə - keçirilən araşdırmanın hesabat forması (8(7)) yararlı ola bilər .

Şagirdin kitabında, eləcə də, müsahibənin aparılması və **respondentlərlə** davranış qaydaları verilir.

**L ü ğ ə t**

*Respondent – anketin suallarına və ya müsahibə zamanı verilən suallara cavab verən və şifahi və ya yazılı informasiya mənbəyini təqdim edən şəxs.*
*Preventiv– prevensiya xarakterli; qarşısı alınası; mühafizəedici.*
*Prevensiya ( lat. praevencio) –nəyinsə qarşısını almaq üçün əvvəlcədən ölçülərin götürülməsi.*

## Problemin aspektlərə bölünməsi

Problem bir çox aspektdən ibarət ola bilər.Aspekt müzakirə olunası obyektin tərəfi, nöqteyi-nəzəridir. Çətin problemin bütün aspektlərinin eyni zamanda həlli demək olar ki, mümkün deyil (Məsələn, vərəm probleminin növbəti aspektləri var: müalicəvi, maarifləndirici, **preventiv**, asılılıq, sosial). Bunun üçün də problemin həllinə çalışdıqda onun bütün aspektləri yaxşı analiz olunmalıdır. Ola bilsin ki, konkret problem aspektlərə parçalanmasın da.

## Problemin aspektinin seçilməsi

Qrupun hansı aspekt üzərində işləyəcəyini müəyyənləşdirmək lazımdır. Bu, layihənin məqsədini formalaşmdırmaqda sizə yardım

edəcəkdir. Məqsəd konkret, ölçülü, əldə edilən, real, zamanda müəyyənləşdirilmiş olmalıdır. Bundan əlavə gözlənilən nəticələri formalaşdırmaq lazımdır. Bu, qrupa yerinə yetirmə indikatorlarının işlənib hazırlanmasında yardım edəcəkdir.

## İş planının tərtib edilməsi

Məqsədi formalaşdırdıqdan sonra qrup üzvləri arasında funksiyalar bölünməli, yerinə yetirmənin real müddətləri müəyyənləşdirilməli, işlər planlaşdırılmalı (Əlavə 11), gözlənilən qarşıdurmalar müəyyənləşdirilməlidir. Lazımi resursları müəyyənləşdirmək lazımdır. Bu, həm insan, həm də maddi resurslara aiddir. Əgər layihəyə maddi resurs lazımdırsa, o zaman mənbə axtarılmalıdır (baxın interne-səhifəyə: http://www.initiatives.ge). Layihənin pillələrinin yerinə yetirilmə cədvəlini Əlavə 9(8)-də verilən forma ilə, layihənin qısa planını tərtib etmək üçün isə Əlavə 12(11)-də verilən forma ilə yazmaq olar.

Yəqin ki, şagirdlərə müxtəlif təşkilatların dəstəyi və yardımı lazım gələcəkdir. Bunun üçün onlar müvafiq təşkilatlara layihə haqqında məlumat təqdim etməli və konkret dəstək istəməlidirlər. Sizə xüsusi olaraq yaradılmış layihə ərizəsinin formasını təklif edirik. Onu tərtib etməkdə şagirdlərə ehtimal ki, müəllimin yardımı lazım olacaqdır.

Layihə ərizəsi növbəti hissələrdən ibarət olmalıdır:

- ✦ titul vərəqi;
- ✦ ərizəçi haqqında məlumat (layihənin əsas həyata keçirənləri, tərəfdaşları və onların konkret rolları);
- ✦ layihənin qısa xülasəsi (layihənin məqsədi və gözlənilən nəticələr, layihənin həyata keçirilmə prosesinin qısa təsviri);
- ✦ problemin / tələbatın təsviri (ətraflı olaraq həmin problemi təsvir edin, hansının həlli layihənizin məqsədini daşıyır);
- ✦ layihənin ətraflı təsviri (layihə çərçivəsində hansı fəallıqlar həyata keçiriləcəkdir, qeyd edilən problemə cavab olaraq layihəni həyata keçirənlər və onların tərəfdaşları tərəfindən hansı tədbirlər keçiriləcəkdir);
- ✦ layihənin həyata keçirilməsinin qrafiki (cədvəl şəklində təqdim edilən layihənin həyata keçirilmə planı həftələr və aylara əsasən, onlar hansı işin hansı müddətdə həyata keçiriləcəyini göstərirlər);
- ✦ layihənin benefisiarları (qeyd edilən layihə hansı insanlar / insan qrupları üçün xeyir gətirəcəkdir);
- ✦ layihənin benefisiarlarının sayı kateqoriyalara əsasən

müəyyənləşdirilir (məs., 30 müəllim, 35 valideyn, məktəbin administrasiyasının 10 nümayəndəsi, cəmiyyətin 100 nümayəndəsi və s.);

- ✦ layihənin qiymətləndirilməsi (qiymətləndirməni həyata keçirən layihənin işinin effektivliyini necə qiymətləndirəcək);
- ✦ layihənin büdcəsi (buradaca göstərilməlidir ki, layihəni həyata keçirən donor təşkilatdan nə qədər məbləğ istəyir, ərizəçi insan və maddi-texniki resurslar şəklində nə qədər həmiştirakçıları nəzərdə tutur. Məs., layihəni həyata keçirənlər tərəfindən layihə üçün təmənnasız əmək, konfrans zalının və ya texnikanın pulsuz verilməsi və s.)
- ✦ risk amillərinin təsviri (layihənin həyata keçirilməsinə və onun məqsədlərinin əldə edilməsinə mane ola bilən mümkün risk amillərinin sadalanması);
- ✦ layihənin uzunmüddətlilik planı (maliyyələşdirmə bitdikdən sonra layihənin necə davam edəcəyini təsvir etmək lazımdır).

## Layihənin yerinə yetirilməsi indikatorlarının müəyyənləşdirilməsi

İndikator latın sözüdür və göstərici mənasını daşıyır. Nəticələrin qiymətləndirilməsi üçün yerinə yetirilmə indikatorları (imkan daxilində, rəqəm) əvvəlcədən müəyyənləşdirilməlidir, yəni layihənin yerinə yetirilib yetirilmədiyinin göstəriciləri. İndikatorlar gözlənilən nəticələrə əsasən müəyyənləşdirilir. Ətraflı izahat üçün müəllim bunları söyləyə bilər: indikator (bu halda) ölçü göstəricisidir ki, planlaşdırılmış müəyyən əməllər zamanı bu və ya digər məqsəd necə əldə olunmalıdır. Məsələn, qocalar evi üçün yorğanlar almaq məqsədilə kulinar əsərin satışı planlaşdırılıb. Həyata keçirənlər yorğanın qiymətini öyrənməli və qocalar evinə neçə yorğanın lazım olduğunu hesablamalıdırlar. Kulinar bazardan daxil olan vəsaitlə alınan yorğanların sayı onun indikatoru olacaq ki, layihə nə dərəcədə nailiyyətlə həyata keçirildi.

## Həll olunası məsələlərin təqdimatının hazırlığı

Təqdimatın hazırlığı əməkdaşlıq üçün seçilən tərəfdaşı inandırmaq üçün lazımdır. Tərəfdaş problemi və onun həllində öz rolunu aydın görməlidir. Tərəfdaşın rolu onun imkanlarını

aşmamalıdır. Bütün bunlar ona qısa, aydın və inandırıcı şəkildə təqdim edilməlidir. Təqdimatın auditoriyanın diqqətini cəlb edəcək və məqsədi çatdıra biləcək girişi olmalıdır. Təqdimatın əsas hissəsi ardıcıl düzülməli və faktlarla əsaslandırılmalıdır. Yekunda qısa olaraq əsas məsələ verilməlidir. Müəllim şagirdlərə təqdimat üçün hazırlaşdıqda bir neçə dəfə məşq etməyi məsləhət görür (təklikdə, yoldaşların qarşısında, müəllimin qarşısında). Ucadan və aydın danışmalı, bütün tanış olmayan sözləri izah etməli, mövzudan kənara çıxmamalıdır. İstifadə olunan əyani vəsaitlər birbaşa mövzu ilə əlaqədə olmalı və auditoriyanın məlumatı anlamağını asanlaşdırmalıdır. (Əlavə 10(9)). Təqdimatın müddəti şərtidir, lakin dinləyicini yormamalıdır. Əgər layihə təqdimatdan əlavə reklam da tələb edərsə, o zaman bu imkan barəsində də fikirləşmək lazımdır.

## Tərəfdaşlarla problemin təqdimatı və əməkdaşlığa başlamaq

Təqdimatdan əlavə tərəfdaşla ünsiyyət formalarını axtarmaq lazım gələ bilər (ərizə ilə müraciət, elektron ismarıcın göndərilməsi və s.).

## İşlərin aparılması

İşlərin aparılması plan əsasında verilən vaxta təsadüf etməlidir. Qrup üzvləri bir-biri ilə nəticələrlə paylaşmalıdırlar. Ehtiyac olduğu halda, planın üzərində düzəlişlər etmək olar.

## Qiymətləndirmə

Problemin həll olub olmadığının aydın olması üçün, ilk növbədə, həyata keçirilən layihə yerinə yetirilmə indikatorlarının vasitəsilə qiymətləndirilməlidir. Bundan əlavə qrup bir neçə suala cavab verməlidir: layihənin müsbət tərəfi nə idi və mənfi tərəfi nədir? Qrup hansı qarşıdurmalarla üzləşdi? Nəyi daha yaxşı etmək olardı? Hər bir üzv nəyi yaxşılaşdıra bilərdi? Qrupun hər bir üzvü nəyi öyrəndi? Bununla belə çox vacibdir ki, layihənin ictimai mənfəəti qiymətləndirilsin. Növbəti suala cavab verilsin: bu layihə ictimaiyyətə hansı mənfəəti gətirdi? Qrup üzvlərinin qarşılaşdıqları çətinliklərin üzərində, gələcək planlar və layihənin yerinə yetirilməsində və layihə bitdikdən sonra öz xidmətləri barədə düşünmələri də yaxşı olardı. Təsəvvür etməlidirlər ki, onlar tərəfindən aparılan ictimai iş “fəal yardım” bumeranqı üzərindəki

yazıdır. Onlar bu bumeranqı buraxır və bumeranqla birlikdə nə qayıdır. Alınan nəticələrin analizi və analiz barəsində diskussiya qazanılan bilik və bacarıqların uzun müddət saxlanılmasına yardım edəcəkdir. Bu prosesdə şagirdlərə Əlavələr 12 (11) – 14 (13) lazım gələcək. Bundan əlavə şagirdlərin müəllimin qiymətləndirməsini də dinləmələri yaxşı olardı.

Qeyd: müəllim əlavələrdə təklif edilən formalardan başqa şagirdlərə birlikdə qiymətləndirmə rubrikalarını tərtib etməyi də təklif edə bilər.

Müəllim qruplara (seçilən problemlərə əsasən) ev tapşırığını verir. Tapşırıq 3.5 məktəbdən kənarda qruplar tərəfindən bir sıra işlərin müstəqil şəkildə həyata keçirilməsini və növbəti dərsdə nəticələrlə tanışlığı nəzərdə tutur.

İctimai iş zamanı şagirdlərin həmin fərdlərin duyğularını nəzərə almaları vacibdir, hansılara ki iş yardım etmək üçün istiqamətlənmişdir. Yardım taktla həyata keçirilməlidir. Bunun üçün universal resept mövcud deyil. Bu, konkret problem və mühitdən asılıdır. Bəzi hallarda işi həddən artıq yayımlamaq lazım olmur. Fərdlərin xüsusiyyətləri vurğulanmamalıdır (məsələn, onların məhdud imkanları). Əgər problem etnik azlıqlara aiddirsə, o zaman layihəyə bu azlıq nümayəndələrini cəlb etmək və problemi mədəni müxtəliflik fonunda təhlil etmək yaxşı olardı. Problem üzərində iş heç bir səviyyədə yeni problem yaratmamalıdır.

**Tapşırıq 3.5**

a) Qrupun birinci toplantısını keçirin və seçilən problem haqqında informasiyanın toplanılması üçün funksiyaları bölüşdürün.
b) Qrupun ikinci toplantısını keçirin. Bu toplantıda əldə edilən informasiyanı təqdim etməli və alqoritmin növbəti pillələrini keçməlisiniz:
- problemin aspektlərə bölünməsi (ola bilsin ki, konkret problem aspektlərə ayrılmasın);
- problemin aspektinin seçilməsi, məqsədin formalaşdırılması;
- iş planının tərtib edilməsi;
- layihənin yerinə yetirilmə indikatorlarının müəyyənləşdirilməsi.
c) nəticələri sinfə təqdim edin.

## Üçüncü dərs

Dərsin birinci hissəsi ev tapşırığının (3.5) yoxlanılmasına ayrılır. Hər bir qrup seçilmiş layihənin hazırkı vəziyyətini təqdim edir. Müəllimin işlənilmiş alqoritm əsasında şagirdlərin işlərinə nəzarət etməsi olduqca vacibdir. Hərçənd, problemdən irəli gələrək pillələrin qisminin müxtəlif olması da nəzərə alınmalıdır.

Ev tapşırığını diqqətlə yoxlamaqla müəllim layihənin gedişinin zəif yerlərini görə və şagirdlərə vaxtında yardım edə bilər. İş planını həyata keçirdikdə "quraşdırılmış diskussiya" üsulundan istifadə etmək tövsiyə olunur. Dərsin qalan hissəsi alqoritmin ötən dərsdə vaxt ayrılmayan bəndlərinin təhlilinə ayrılır. Müəllim mütləq şagirdləri xəbərdar etməlidir ki, müxtəlif mühitlər layihənin gedişinə təsir göstərə bilərlər və bəzi hallarda, bəzi pillələrə qayıtmaq məcburi ola bilər. Bu, şagirdlərdən müəyyən çeviklik tələb edir. Evdə yerinə yetirmək üçün Tapşırıq 3.6 verilir. O, qrupların layihə üzərində işlərinin davamını nəzərdə tutur.

**Dərsin məqsədi:**

Şagirdlər tərəfindən problemin həlli alqoritmi pillələrinin dərk edilməsi və layihənin həyata keçirilməsinin hazırkı vəziyyətinin qeyd edilməsi.

## Dördüncü dərs

Dərsin əsas vaxtı hazırlanmış təqdimatların təhlilinə və düzəlişlərin edilməsinə ayrılır. Bunda bütün sinif iştirak edir. Qrup, istəyinə əsasən, qeydləri qəbul edə və nəzərə ala bilər.

**Müəllimin tövsiyələri**

Bu dərsdə müəllimə imkan verilir ki, şagirdləri diqqəti cəlb edən səhvlər etməkdən uzaqlaşdırsın və onlara növbəti iş üçün

**Tapşırıq 3.6**

Mümkün tərəfdaşlar üçün layihənin təqdimatını hazırlayın.

məsləhətlər versin.

Dərsin sonunda müəllimin layihənin ardıcıllığı haqqında təsəvvürü yaranır. Dərsdən sonra şagirdlər tərəfdaşları ilə əlaqə yaradır və işə başlayırlar.

Müəllimin şagidlərə layihə bitkdikdən sonra onun qiymətləndirilməsini və sonra nəticələrin açıq təqdim edilməsini (sinifdə, məktəbdə..) xatırlatmağı vacibdir.

Layihənin qiymətləndirilməsində müəllimin də iştirak etməyi vacibdir.

Bütün bunlar ev tapşırığı 3.7-də verilir.

**Tapşırıq 3.7**

a) mümkün tərəfdaşlar üçün layihəni təqdim edin;
b) göstərilən planın əsasında hərəkət edin;
c) yerinə yetirilən işi qiymətləndirin;
ç) layihənin nəticələri ilə cəmiyyəti tanış edin.

Növbəti səhifədə cədvəl verilir. Onda konkret layihənin həyata keçirilməsi üçün verilən tapşırıqların və problemin həlli alqoritminin müvafiq pillələri təsvir olunur.

| Problemin həllinin ümumi alqoritmi | Konkret layihələr üçün tapşırıqlar |
|---|---|
| 1. Problemin göstərilməsi | Tapşırıq 1.2 |
| | Tapşırıq 3.3 |
| 2. Qrupun toplanılması | Tapşırıq 3.3 |
| 3. Problemin öyrənilməsi. Problem haqqında informasiyanın toplanılması (mənbə: ailə, dostlar, kitabxana, jurnal-qəzetlər, müəllimlər, televiziya, internet, bu problem üzərində işləyən təşkilatlar) | Tapşırıq 3.5 |
| 4. Problemin aspektlərə bölünməsi (ola bilsin ki, konkret mövzu aspektlərə bölünməsin) | Tapşırıq 3.5 |
| 5. Problemin aspektinin seçilməsi. Məqsədin formalaşması. | Tapşırıq 3.5 |
| 6. İş planının tərtib olunması | Tapşırıq 3.5 |
| 7. Layihənin yerinə yetirilmə indikatorlarının müəyyənləşdirilməsi | Tapşırıq 3.5 |
| 8. Həll olunası məsələlərin təqdimatının hazırlığı | Tapşırıq 3.6 |
| 9. Problemin tərəfdaşlarla təqdimatı və əməkdaşlığa başlamaq | Tapşırıq 3.7 |
| 10. İşlərin aparılması | Tapşırıq 3.7 |
| 11. Qiymətləndirmə | Tapşırıq 3.7 |

Şagirdlərin hazırkı fəallıqlarına və layihəyə qiymət verilmir, amma müəllim fəallıqları da, layihəni də qiymətləndirməlidir (qiymət xaricində) ki, şagirdlərə vaxtında və keyfiyyətli məsləhətlər verə bilsin. Bu, həm hazırkı layihələrin həyata keçirilmə səviyyəsində, eləcə də, növbəti layihələrdə öz əksini tapacaqdır. Əlavədə Milli tədris planında təklif edilən qiymətləndirmə rubrikaları (Əlavələr 16-18) təklif edilir, ki onları konkret hallara uyğunlaşdıra bilərsiniz.

Əlavə
6 (5)

## Layihə üçün lazımi resursların qeydiyyat vərəqi

**Layihənin adı:** **Şagird:** **Tarix:**

| İnternet saytlar |
|---|
| |
| **Kitablar / başqa çap materialları** |
| |
| **Valideynlər və ya ictimaiyyət nümayəndələri** |
| |
| **Özəl və dövlət təşkilatları / proqramlar** |
| |
| **Konsultantlar / ekspertlər** |
| |
| **Biznes və ictimai qruplar** |
| |

## Şagirdlər üçün keçiriləsi tədqiqatın qısa planı

**Layihənin adı:** **tarix:**

| **Araşdırmaq istədyim məsələ (məsələlər):** | |
|---|---|
| | |
| **Toplamaq istədiyim məlumat:** | **İnformasiyanın əldə edilməsi yolları:** |
| | |
| **Kim nə etməlidir?** | **etməlidir?** |
| | |
| **Bu araşdırma layihəyə nəyi əlavə edəcək?** | |
| | |

Əlavə
8 (7)

## Şagirdlər üçün keçiriləsi tədqiqatın hesabatı

**Layihənin adı:** **tarix:**

| **Mən araşdırdım:** |
|---|
| |
| **Növbəti əməlləri yerinə yetirdim:** |
| |
| **Mənə məlum oldu ki:** |
| |
| **Öyrəndim ki, növbətiləri necə etməliyəm:** |
| |
| **Araşdırma nəticəsində hesab edirəm ki, layihədə növbəti dəyişiklikləri etməliyəm (əgər lazım gələrsə):** |
| |

# Layihənin pillələrinin yerinə yetirilmə cədvəli

**Layihənin adı:** **Şagird:** **Tarix:**

| Pillə | Yerinə yetirilmə tarixi | Yerinə yetirilmişdir |
|---|---|---|
| | | ☐ |
| | | ☐ |
| | | ☐ |
| | | ☐ |
| | | ☐ |
| | | ☐ |
| | | ☐ |
| | | ☐ |
| | | ☐ |
| | | ☐ |
| | | ☐ |
| | | ☐ |

Əlavə
10 (9)

## Şagirdlər üçün təqdimatın qısa planı

**Layihənin adı** **Şagird(lər):** **Tarix:**

| |
|---|
| **Mənim auditoriyam kimdir?** |
| |
| **Mənim təqdimatımdan sonra auditoriya nəyi başa düşəcəkdir?** |
| |
| **Qrupda təqdimat halında təqdimatın hansı hissəsi mənə tapşırılır?** |
| |
| **Təqdimatım hansı hissələrdən ibarətdir?** |
| |
| **Mənim fikrimcə, bu təqdimatın hazırlanması və həyata keçirilməsi prosesində növbətiləri öyrənəcəyəm:** |
| |
| **Hansı bacarıqlara xüsusi diqqət verməliyəm?** |
| |
| **Təqdimatım üçün növbəti texnika/ alətlər mənə lazım gələcəkdir:** |
| |
| **Təqdimatım üçün növbəti əyani vəsaitlər mənə lazım gələcəkdir:** |
| |
| **Mənə hansı suallar verilə bilər?** |
| |

## Təqdimatın qiymətləndirmə vərəqi

| Tərkib hissələr | | |
|---|---|---|
| Məzmun | Bütün əsas məsələlər təqdim edilib və onlar faktlara əsaslanırlar | ☐ |
| Qeyd | | |
| Təşkilatçılıq | Giriş auditoriyanın diqqətini cəlb edir. Əsas hissə ardıcıldır. Nəticə qısa olaraq əsas məsələləri təkrarlayır. | ☐ |
| Qeyd | | |
| Hazırlıq səviyyəsi | Şagird yaxşı hazırlanmışdır. Auditoriyanın suallarına cavab verə bilir. | ☐ |
| Qeyd | | |
| Söhbət | Şagird ucadan və aydın danışır ki, hər bir iştirakçı onun təqdimatını eşitsin. Mövzudan kənara çıxmır. | ☐ |
| Qeyd | | |
| Təqdimat səviyyəsi | Şagird sakit və mülayimdir. Bütün auditoriyaya müraciət edir. | ☐ |
| Qeyd | | |
| Əyaniliklər | Əyani vəsaitlər birbaşa təqdimatın mövzusu ilə əlaqədədir, yaxşı yerinə yetirilmiş və ötürülən informasiyanı zənginləşdirir. | ☐ |
| Qeyd | | |
| Vaxt limitinə əməl etmək | Şagird təqdimata planlaşdırılmış və ya razılaşdırılmış vaxt ayırır. | ☐ |
| Qeyd | | |

Əlavə
12 (11)

# Layihənin ümumi qısa planı

**Layihənin adı:** **Şagird:** **Tarix:**

| Həlli üçün layihə hazırlanan əsas problem/məsələ | | |
|---|---|---|
| | | |
| **Növbəti məsələnin (məsələlərin) tədqiqatını planlaşdırırıq:** | | |
| | | |
| **Növbəti işləri yerinə yetirməliyik:** | | |
| **Nə etməliyik?** | **Necə etməliyik?** | **İş nə vaxt bitməlidir – tarix:** |
| | | |
| **Növbəti resurslar və yardım lazım gələcəkdir** | | |
| | | |
| **Layihəni yerinə yetirdikdən sonra öyrənilən/yerinə yetirilən növbəti üsullarla göstərməyi düşünürəm:** | | |
| **Nə (üsul)?** | **Necə?** | **Kim və harada?** |
| | | |

## Qrup layihəni həyata keçirərkən nəyi öyrəndi

**Layihənin adı:** **Şagird:** **Tarix:**

| |
|---|
| **Bizim növbəti məqsədlərimiz var idi:** |
| |
| **Biz yerinə yetirdik:** |
| |
| **Bizim növbəti addımlarımız olacaq:** |
| |
| **Bizim ən böyük problemimiz/ məsələmiz/ qayğımızdır:** |
| |
| **Bu layihənin vasitəsilə biz öyrəndik:** |
| |

Əlavə 14 (13)

## Qrup tərəfindən yerinə yetirilən işdə gördüyü iş (şagirdin özünüqiymətləndirməsi)

**Layihənin adı:** **Şagird:** **Tarix:**

| |
|---|
| **Mən qrupun irəliləyişinə növbətilərlə yardım etdim:** |
| |
| **Bu qrupda mənim üçün ən çətindir:** |
| |
| **Mən bunu növbəti yolla dəyişə bilərəm:** |
| |
| **Qrupun daha effektli işləməsi üçün etməliyəm:** |
| |

## Layihə bitdikdən sonra özünüqiymətləndirmə

**Layihənin adı:** **Şagird:** **Tarix:**

| |
|---|
| **Layihənin yerinə yetirilmə prosesində növbəti məsələləri yerinə yetirdim:** |
| |
| **Bunun nəticəsində növbətiləri öyrəndim:**<br>**Problem/məsələ haqqında:** |
| |
| **Qrupda iş haqqında:** |
| |
| **Tədqiqatın aparılması haqqında:** |
| |
| **Auditoriya qarşısında təqdimatın təşkil edilməsi haqqında:** |
| |
| **Yuxarıda adı çəkiləndən başqa öyrəndim:** |
| |

**Mənə məlum oldu ki, güclü tərəflərimdir:**

**Mənə məlum oldu ki, daha çox diqqət yetirməliyəm:**

**Yeni layihəni həyata keçirərkən nəyi dəyişərdim:**

Əlavə 16

## Diskussiyanın qiymətləndirmə rubrikası

Konkret şagirdə hər bir kriteri ətrafında müvafiq bal verilir, bütün kriterilərdə alınan ballar toplanır və altıya bölünür (onların orta qiyməti hesablanır).

| | | | |
|---|---|---|---|
| Dinləmə | Natiqi hər zaman dinləyir və ona diqqət yetirir | Tez-tez natiqi dinləyir və ona baxır | Natiqi nadir hallarda dinləyir və baxır |
| Söhbət | Aydın danışır və dinləyicilərə baxır | Nitq əsasən aydındır, dinləyicilərə baxır | Nitq aydın deyil, dinləyicilər anlamaqda çətinlik çəkirlər |
| Qeyri-verbal kommunikasiya | Qeyri-verbal kommunikasiya formalarını effektli şəkildə anlaya bilər (gözlə, jestlərlə, ifadə ilə, səslə) | Qeyri-verbal əlaqəni tez-tez əsaslandıra bilər | Qeyri-verbal kommunikasiya formalarından nadir hallarda istifadə edir |
| İştirak etmək | Lazımi şərhləri və fikirləri ifadə etməklə diskussiya mövzusuna doğru maraq göstərir | Əsasən marağını göstərir. Şərhlər və fikirlər hər zaman mövzu ətrafında deyil | Marağı azdır. Diskussiya mıovzusuna öz fikrini bildirmir və ya əlaqələndirə bilmir |
| Kooperasiya | Sinif yoldaşları ilə əməkdaşlıq edir, başqalarına fikrini bildirməyə imkan verir və diskussiya qaydalarına riayət edir | Əsasən sinif yoldaşları ilə əməkdaşlıq edir, bəzən başqasının söhbətinə qoşulur, əsasən diskussiyanın qaydalarına riayət edir | Nadir hallarda əməkdaşlıq edir və diskussiyanın qaydalarına əməl edir. |
| Fikrin sübuta yetirilməsi | Fikir orijinaldır və faktlarla, anlayışlarla təsdiqlənir. Məsələ ilə məntiqi əlaqə var | Fikri təsdiqləmək üçün mübahisəli faktlardan və anlayışlardan istifadə olunur | Fikir məntiqi əlaqədən məhrumdur və faktlarla əsaslanmır |

Əlavə 17

## TƏQDİMATIN QİYMƏTLƏNDİRMƏ RUBRİKASI

Bu halda şagirdlərə hər bir kriteridə sıfır və ya bir bal verilir və yekun qiymət üçün onların cəmi hesablanır. Maksimum cəm 10 baldır.

| | Şagirdin adı, soyadı | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. | 8. | 9. | 10. |
| Maraqlı giriş (Problemin eyniləşdirilməsi) | 1 | | | | | | | | | |
| Tədqiqatların/işin təqdimatı bacarığı | 1 | | | | | | | | | |
| Yaradıcılıq bacarığı | 1 | | | | | | | | | |
| Problemin həlli yollarının təklif edilməsi | 0 | | | | | | | | | |
| Mövzunun aydın şəkildə təqdim edilməsi (məntiqi zəncir) | 0 | | | | | | | | | |
| Söhbət (səlislik, tembr) | 1 | | | | | | | | | |
| Əyani vəsaitlərdən istifadə | 0 | | | | | | | | | |
| Auditoriya ilə əlaqə | 1 | | | | | | | | | |
| İnformasiyaya malik olma bacarığı (adekvat sual-cavab) | 1 | | | | | | | | | |
| Vaxt limitinə riayət etmək | 0 | | | | | | | | | |
| Cəmi | 6 | | | | | | | | | |

# Layihənin qiymətləndirilməsinin ümumiləşdirilmiş rubrikası

Maksimum cəm balını üçə bölməklə toplanılan ballar on ballıq qiymətləndirməyə keçiriləcəkdir.

| | Elementar | Kafi 2 bal | Məharətli 3 bal |
|---|---|---|---|
| 1. Məqsəd | Yaxşı ayırd edilməmişdir, qarışıqdır | Bir məqsədə cəmlənmişdir | Məqsədlər yaxşı ayrılmışdır, asanlıqla qavranılır |
| 2. Təşkilatçılıq | Zəif təşkil edilmişdir, ideyalar arasında məntiqi zəncir yoxdur, bu isə oxucunu/dinləyicini çaşdırır | Ardıcıllıq düşünülmüşdür, təşkilatçılıq əlamətləri ilə, ideyalar arasında bəzi keçidlər asandır, bəziləri – anlaşılmazdır | Yaxşı təşkil edilmiş format, bir ideyadan ikinciyə məntiqi keçid, təşkilatçılıq layihənin effektivliyini artırır |
| 3. Məzmunun korrektivliyi | Tez-tez uyğun olmayan, səhv informasiyaya təsadüf olunur, oxucunu/ dinləyicini çaşdırır | Əsasən korrektivdir, bəzi uyğun olmayan və ya səhv məlumatlarla | Tamamilə korrektivdir, faktlar dəqiq və aydındır |
| 4. Dil səlisliyi | Dil baxımından səlis, bir çox hallarda səhvlərlə | Dil baxımından səlis, az səhvlərlə | Dil baxımından səlis, durğu işarələrinə riayət edilir |
| 5. Tədqiqat | Tədqiqat effektli planlaşdırılmamışdır, istifadə olunan mənbə etibarlı deyil, analiz səthidir | Tədqiqat planlaşdırılmışdır, amma qrupun potensialından tamamilə istifadə olunmamışdır, mənbələrdən məhdud sayda istifadə olunmuşdur, analiz qəbul ediləndir | Tədqiqat düzgün planlaşdırılmışdır, bir neçə mənbədən istifadə olunmuş (səyyar tədqiqatdan avtoritet tədqiqatlar və əldə edilən materiallar) və analiz dərindir |

| | | | |
|---|---|---|---|
| 6. Əyaniliklər | Əyaniliklər bir çox hallarda məzmunla uyğun deyil, yaxud da qrup tərəfindən yaradılmamışdır | Əyaniliklərin məzmunla əlaqəsi vardır, amma birrənglidir, axtarılmış və qrup tərəfindən yaradılanlardan istifadə olunur | Rəngarəng, məzmuna uyğun, səliqəli yerinə yetirilmiş |
| 7. Yaradıcılıq | Qrup tərəfindən az yaradıcılıq enerjisinin xərclənməsi | Qrupun orijinal fikirləri bəzən görünür və layihənin daha yaxşı görünməsinə yardım edir | Qrupun orijinallığı, yenilik və özünəməxsus nəzər görünür. Bu isə layihəni maraqlı edir. |
| 8. Fənlərlə əlaqə | Qrupun fənlərdə səriştəsi görünmür, faktların dəqiq olmayan şərhləri görünür | Bir və ya iki fəndən alınan biliklə fikirlərin əlaqəsi var | Əsas fikirlər müxtəlif fənlərdən alınan biliklə əlaqələnir. Bu da bir çox istiqamətdə qrupun səriştəsini göstərir |
| 9. Nəticələr | Nəticələr formalaşdırılmamışdır | Nəticələr tədqiqata uyğun olaraq formalaşdırılmışdır, amma aydın deyil | Nəticələrdə yenilik (orijinallıq) var, tədqiqatla məntiqi əlaqə var və aydın formalaşdırılmışdır |
| 10. Təqdimat | Layihənin məğzi effektli şəkildə göstərilməmişdir, fikrin formalaşdırılmasında və cavab verməkdə çətinlik çəkir, Əyaniliklər dən məqsədli şəkildə istifadə olunmamışdır | Layihənin məğzi qarışıq şəkildə formalaşdırılmışdır, Əyaniliklər dən istifadə olunur, sualların əksəriyyətinə cavab verilir | Layihənin məğzi aydın şəkildə formalaşdırılmışdır, nitq aydındır, auditoriya üçün nəzərdə tutulmuşdur, əsas ideyalar açıqlanır, Əyaniliklər dən istifadə olunur və bütün suallara cavab verilir |

# Əlifba sırası ilə lüğət

| | |
|---|---|
| *Alqoritm* | *ciddi qaydalarla aparılan və onların ardıcıllıqla yerinə yetirilməsindən sonra məsələnin həllinə gətirib çıxaran əməllər birliyi.* |
| *Aspekt* | *( lat. Aspectus – nəzər, növ)*<br>*nöqteyi-nəzər, ondan irəli gələrək mövzu, hadisə, məfhum təhlil edilir;*<br>*verilən hadisənin tərəflərindən biri və ya əlaqə.* |
| *Benefisiar* | *müəyyən sənəd əsasında əmlak, hüquq və ya başqa növ mənfəət əldə edən şəxs.* |
| *Qabon* | *hal-hazırda Afrikanın müstəqil dövləti.* |
| *Gender diskriminasiyası* | *vətəndaşların hüquqlarının onların cinsi motivləri ilə alçaldılması.* |
| *Elzas* | *Şimal-şərqi Fransa vilayəti. 1871-1918-ci illərdə Almaniyaya aid idi.* |
| *Teologiya* | *ilahiyyat; dini doktrinaların və təlimlərin birliyi.* |
| *Özünüidarəetmə* | *ictimai idarəetmənin elə bir formasıdır ki, bu zaman müəyyən ərazinin sakinləri cəmiyyət yaradırlar və mərkəzi hakimiyyət onu tanıyır və ona hüquqi status da verir.* |
| *İndikator* | *lat. indicator) – göstərici.* |
| *Kompromis* | *(lat. compromissum) – qarşılıqlı güzəşt yolu ilə əldə edilən razılaşma.* |
| *Lisenziant* | *1) birinci elmi dərəcə Qərbi Avropa və Latın Amerikası ölkələrində, ali təhsil müəssisələrində təhsilin 3-cü və ya 4-cü ilinə uyğun edilir,orta məktəb müəllimi vəzifəsində işləmək hüququnu verir; 2) bəzi universitetlərdə, bakalavr və doktor dərəcələri arasında elmi dərəcə.* |
| *Missioner* | *(frans. missionaire) Xristian kilsəsi tərəfindən dini təşviqatı yaymaq və başqa dinə itaət edənləri xristianlara çevirmək üçün göndərilən.* |

*Preventiv*

*prevensiya xarakterli; qarşısı alınası; mühafizəedici.*
*Prevensiya lat. praevencio ) nəyinsə qarşısını almaq üçün əvvəlcədən ölçülərin götürülməsi).*

*Respondent*

*anketin suallarına və ya müsahibə zamanı verilən suallara cavab verən və şifahi və ya yazılı informasiya mənbəyini təqdim edən şəxs.*

## Faydalı resurslar

1. "Kompasito" – uşaqlar üçün insan hüquqları sahəsində dərslik. Avropa Şurasının Gürcüstanda informasiya bürosu. 2009
2. Gürcüstan Parlamentinin milli kitabxanası, internet-səhifə http://www.nplg.gov.ge/ Gürcüstan vətəndaş cəmiyyətinin rəqəmsal kitabxanasının kolleksiyası və mülki təhsilin rəqəmsal kitabxanası.
3. www.fpp.org.pl
4. www.freethechildren.com
5. www.pbl_online.org

## İstifadə olunan ədəbiyyat və fotoşəkillər


1. Brander P., Oliveyra B., Qomes R., Onraçkova İ., Kin E., Suriani A., Leminer M-L, Suslova A. Kompas, İnsan Hüquqlarının təhsili sahəsində dərslik. Counsil of Europe, Gürcüstanda dərc edilib, 2004.
2. Təhsil işçiləri üçün izahatlı lüğət, Tbilisi, 2007
3. Qvaramadze N., Xuroşvili A. Gürcüstan məktəblərində beynəlxalq humanitar qanunun əsaslarının öyrənilməsi, Tbilisi 2005
4. Səh. 37, səh. 39 Logo, © Free the Children (təşkilat tərəfindən verilən fotoşəkillər).
5. Dimeki Rafal, Məktəbdə Avropa klubu, Nə üçün? Necə? Müəllim və şagird üçün dərslik. Varşava, 2010
6. N. Eremaşvili, N. Peradze M., Makalatia E., Qaxeladze Q., Hüquqi mədəniyyət. İnternational, Tbilisi, 2000.
7. Milli Tədris planı 2011-2016 (layihə)
8. Vaja Pşavela, Kosmopolitizm və vətənpərvərlik, 1905
9. Yerli özünüidarəetmə haqqında qanun
10. Vebster Q., Bax və söylə, imtinanı məhdudlaşdır…., REC Caucasus, Tbilisi, 2007
11. Məktəb şagirdləri üçün özünüidarəetmənin seçimi üçün təlimat. Tbilisi, 2010
12. Ümumi təhsil haqqında Gürcüstan qanununu.
13. İctimai məktəblərin nizamnaməsi
14. Tanış olmayan sözlərin lüğəti (tərtibatçı: M. Çabaşvili), “Qanatleba”, Tbilisi, 1973
15. Xarici sözlərin lüğəti (tərtibatçı: S. Tezelişvili), Tbilisi, 2005
16. Biz, xalq .... layihə - vətəndaş, CIVITAS International, Tbilisi, 2002
17. Носик Б. Альберт Швейцер. Белый Доктор из Джунглей. ЖЗЛ, Москва, 1973
18. Bundesarchiv, Bild 183-D0116-0041-019
19. http://ka.wikipedia.org/wiki/vaJa-fSavela
20. http://ru.wikipedia.org/wiki/Жубер_Петрус_Якобус
21. http://ru.wikipedia.org/wiki/Файл:L.N.Tolstoy_PrSokudin-Gorsky.jpg
22. http://ru.wikipedia.org/wiki/Файл:Kafka_portrait.jpg
23. http://www.enfantsentraide.org/quinoussommes/histoire